www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 aprel 2025-ci il Çərşənbə № 58 (8668) Qiymıəti 60 qəpik

## Xəbər

**Gömrükdə antikorrupsiya həbsləri**

yazısı səh.10-da

## Gündəm

**Britaniya XİN-dən qəribə xəbərdarlıq: "Şuşaya da getməyin..."**



Hərbi qarşıdurma ehtimalı ciddiləşir?

yazısı səh.7-də

**Bakıda dövlət qonaqlarını öldürmək istəyənə cəza**

yazısı səh.10-da

**İnstitutlar birləşdirilir - elm qazanacaq, yoxsa büdcə?**

yazısı səh.11-də

**Rusiyanın dərman şirkətləri Azərbaycandan niyə gedir?**

yazısı səh.12-də

**Sabiq nazir və Abutalıbov haqda ilginc iddialar**

yazısı səh.3-də

**İki türk dövləti niyə Kiprdə səfirlik açdı?**

yazısı səh.4-də

**Qadınların pensiyaya çıxması qaydası dəyişir**

yazısı səh.14-də

**"Türkiyə Davosu" - dünya üçün aprel tezisləri**

yazısı səh.4-də

**Xankəndidə ADA Siyasi Forumu**

yazısı səh.7-də

**Spikerlər "Qafqaz masası" yaradır**

yazısı səh.8-də

**Pekinin "Zəngəzur dərdi"**

yazısı səh.9-da

**Pensiyalar bu tarixdə ödəniləcək**

yazısı səh.14-də

**"ƏDV-ni geri al" problemi**

yazısı səh.15-də

# MİNSK QRUPU ƏVƏZİNƏ 3+3 FORMATI

Özü böyük müharibə təhlükəsi ilə üzləşən İran niyə Qafqaza sülh "gətirmək" niyyətinə düşüb?

yazısı səh.6-da




# Dollar Azərbaycanda "gizlənməyə" başladı

Mərkəzi Bank banklara gündəlik satılan xarici valyutanın məbləğini açıqlamamaq qərarını necə izah edir?; iqtisadçı deyir ki, manatın...

yazısı səh.3-də



**Eldar Mahmudovun adamları Avropada siyasi sığınacaq alıb**

yazısı səh.10-da



**Xameneinin Türkiyəyə hədəsi**

yazısı səh.13-də



Mikayıl Cabbarov

**Nazir iki milyardlıq saziş üçün Pakistanda**

yazısı səh.5-də



## İlham Əliyev iranlı naziri qəbul edib

**Prezident İlham Əliyev aprelin 8-də İranın yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqi qəbul edib.**

Dövlət başçısı Fərzanə Sadiqin ölkəmizə səfəri çərçivəsində Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının iclasının keçirilməsini müsbət qiymətləndirib və komissiyanın gündəliyində iqtisadi-ticari, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün vacib layihələrin olduğunu qeyd edib.

İranın ölkəmizlə münasibətləri bütün sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu deyən Fərzanə Sadiq xalqlarımızın tarixi, mədəni, dini və qohumluq əlaqələrinin olduğunu bir daha vurğulayıb.

Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, Araz çayı üzərində Ağbənd və Kəlalə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi layihəsi və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

## Nazim İmanov yubileydə niyə olmayıb?



**Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) qurucusu və fəxri lideri Etibar Məmmədovun 70 illik yubiley tədbiri müzakirələrə səbəb olub. Aprelin 1-də keçirilən tədbirdə bir sıra partiya sədrləri, deputatlar, müxtəlif siyasi təşkilatların nümayəndələri, jurnalistlər iştirak ediblər.**

Maraqlıdır ki, Etibar Məmmədovun yubileyində vaxtilə onun yaxın dostu və silahdaşı olmuş, AMİP-in də qurulmasından fəal iştirak etmiş sabiq deputat Nazim İmanov gözə dəyməyib. Bu olay bir sıra suallar yaradıb.

Modern.az-ın əməkdaşı Nazim İmanovun tədbirdə görünməməsinə aydınlıq gətirilməsi üçün AMİP-in hazırkı sədri Arzuxan Əlizadə ilə əlaqə saxlayıb.

**Partiya sədri Nazim İmanovun mərasimə dəvət olunmadığını söyləyib:** "Təbii ki, Nazim İmanov partiyadan ayrıldıqdan sonra AMİP-lə bu və ya digər şəkildə heç vaxt əlaqə saxlamayıb. Nazim İmanov partiyamızı vaxtilə parlamentdə təmsil edib, AMİP-in aparıcı şəxsi olaraq ictimaiyyət tərəfindən də tanınıb. Hazırda AMEA-nın institutlarından birinə rəhbərlik edir. Partiya ilə əlaqəsi olmadığına görə onun tədbirə dəvət edilməsi məqsədəmüvafiq hesab olunmayıb".

## "Azdrama"da "komediya"




**Akademik Milli Dram Teatrının ("Azdrama") səhnə arxasında əlbəyaxa dava baş verib.**

Dava teatrın bədii şurasının iclasında baş verib. Xalq artisti Əli Nur çıxışı zamanı başqa teatrdan dəvət olunan aktyor və rejissorlara etiraz edib. Aktyor deyib ki, "Azdrama"ya təsadüfi rejissorlar dəvət etmək olmaz və bununla bağlı fikrini təhlil edib. Mübahisə yaranıb və aktyorlardan bir neçəsi Əli Nurun üstünə hücuma keçərək ona yumruq atıblar.

Vəziyyətin dramatik həddə çatacağını görən Xalq artisti Sabir Məmmədov hadisəyə biganə qala bilməyib. Sabir Məmmədov və teatrın direktoru İlham Əsgərov dava edənləri iclas otağından çıxardaraq hadisə yerindən uzaqlaşdırıblar.

Teatrın mətbuat xidmətindən bildirilib ki, teatrda bədii şuranın iclası keçirilib. İclas zamanı rolların müzakirəsi mövzusunda iki aktyor arasında müəyyən gərginlik yaranıb. "Aktyorlar arasında qeyd olunan fakt iclasdan kənar məsələ - tamaşa afişası, rejissorun tamaşaya yanaşması, aktyor oyunu ilə bağlı olub. Hazırda teatrda yaradıcı proses öz axarında davam edir, eyni anda 3 tamaşanın məşqi aparılır", - açıqlamada qeyd olunub.

# Kartof nə vaxt ucuzlaşacaq?



**Bazarda kartof və soğanın qiymətində kəskin artım müşahidə edilir. Xüsusilə də kartofun qiyməti "əl yandırır".**

Belə ki, 1 manat 50 qəpikdən başlayan qiymətlər 3 manata qədər yüksəlir.

Kartofun və soğanın qiymətində kəskin artımın səbəbi və bahalaşmanın nə qədər davam edəcəyi sual doğrurur.

Modern.az-a açıqlamasında **iqtisadçı ekspert Akif Nəsirli** bildirib ki, ölkəmizdə kartofun bahalaşması yerli istehsal olunan kartof ehtiyatlarının tükənməsi ilə bağlıdır:

"Hazırda təxminən ölkə daxilində tələbatın 80%-i həcmində kartof istehsal edirik. Faraş kartofu adətən yaz aylarında ixrac edirik. Yayın sonu, payızın əvvəlində isə faraş kartof həm bazara çıxarılır, həm də ehtiyat olaraq anbarlara yığılır".

**A.Nəsirli vurğulayıb ki, yaxın vaxtlarda kartof ucuzlaşacaq:** "Uzağı bir həftəyə faraş kartofu bazarda görəcəyik. Bununla da kartofun qiyməti yavaş-yavaş aşağı düşməyə başlayacaq. İndi kartofun qiymətinin daha çox artması, ixracatçı sahibkarların idxala ehtiyatla yanaşmalarından qaynaqlanır. Onlar böyük partiyalarla kartof gətirib ziyana düşmək istəmirlər. Sahibkarlar kiçik partiyalarla kartof gətirirlər, beləliklə də tələb təklifi üstələyir, ona görə də qiymətlər artır. Yaxın günlərdə kartofun qiymətinin düşməsini müşahidə edəcəyik".



## Mayora hücum edən idmançılar barədə qərar

**Bakıda DSX mayoruna hücum etməkdə təqsirləndirilən idmançılar barəsində olan həbs-qətimkan tədbirinin müddəti uzadılıb.**

Məhkəmə təqsirləndirilən şəxslərin həbs-qətimkan tədbirinin müddətini mayın 5-dək uzadıb.

Qeyd edək ki, yanvarın 4-də saat 03 radələrində paytaxtın Xətai rayonunda bir qrup idmançı xuliqanlıq zəminində insident törədib.

İdmançıların DSX mayoru, kikboksinq üzrə Əməkdar məşqçi və Əməkdar idman ustası Fuad Zeynalova hücum etdikləri bildirilib.

Faktla bağlı idmançılardan Elnur Həmidov, Emil Hümbətov, Elçin Hüseynov, Elvin Məmmədov, Musa Əhmədov və Ramal Aslanov polis tərəfindən saxlanılıb.

Hadisənin sifarişçisinin Kikboksinq Federasiyasının I vitse-prezidenti Ramal Aslanov olduğu açıqlanıb.

Xətai Rayon Məhkəməsinin qərarına əsasən, saxlanılan Elnur Həmidov, Elçin Hüseynov və Musa Əhmədov barəsində 3 ay müddətində həbs-qətimkan tədbiri seçilib. Elvin Məmmədov barəsində isə polis nəzarəti altına verməqətimkan tədbiri seçilib.

## Sabunçuda uşaq bağçasında asılmış meyit tapıldı

**Bakıda intihar hadisəsi baş verib. Lent.az xəbər verir ki, hadisə Sabunçu rayonu, Maştağa qəsəbəsinin ərazisində yerləşən 9 saylı uşaq bağçasında qeydə alınıb.**

Orada işləyən fəhlə, 1981-ci il təvəllüdlü Cəlal Yusif oğlu Musayev bağçanın qazanxanasında özünü asıb. Onun asılmış meyitini bağçanın kollektivi aşkar edib.

İntiharın səbəbləri məlum deyil. Faktla bağlı araşdırmalar Sabunçu Rayon Prokurorluğu tərəfindən aparılır.

## Bakıda orta aylıq əməkhaqqı 1332 manat oldu




**2025-ci ilin yanvar ayında Bakı şəhərində muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 9,2% artaraq 1332,6 manat təşkil edib.**

Bu barədə Modern.az Bakı şəhər Statistika İdarəsinə istinadən xəbər verir.

Xatırladaq ki, 2025-ci ilin yanvar ayında Azərbaycanda iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 12,8% artaraq 1062,9 manat olub.

## Yas mərasimində evin eyvanı uçdu

**Göyçay rayonunda yas mərasimi zamanı evin eyvanının uçması nəticəsində 8 nəfər yaralanıb.**

Bu barədə TƏBİB-dən məlumat verilib.

Bildirilib ki, aprelin 7-də saat 13:00 radələrində Göyçay rayonunun Qarayazı kəndində yas mərasimi zamanı eyvanın aşması nəticəsində xəsarət alan 8 nəfər Göyçay Rayon Mərkəzi Xəstəxanasının təcili yardım bölməsinə hospitalizasiya olunub.

Onlardan 7 nəfər qadın ilkin tibbi yardım göstərildikdən sonra ambulator müalicə üçün evə buraxılıb.

Digər 1973-cü il təvəllüdlü qadın isə çoxsaylı sınıqlar və onurğa zədəsi diaqnozu ilə ixtisaslaşmış tibb müəssisəsinə hospitalizasiya olunub.



## 60 manat və 2 bal... - DYP-dən xəbərdarlıq

**Bakı Şəhər DYP İdarəsi tərəfindən piyadaların iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması və qəzaların sayının minimuma endirilməsi istiqamətində mütəmadi olaraq nəzarət-profilaktiki tədbirlər həyata keçirilir.**

Bu barədə BŞDYP İdarəsinin məlumatında bildirilib.

Qeyd edilib ki, piyada qəzalarının baş verməsinə səbəb olan amillərdən biri də nəqliyyat vasitələrinin səkilərdə park edilməsidir. "Mövcud qanunvericiliyin tələbinə əsasən səkilərdə nəqliyyat vasitələrinin dayanması və durması qadağandır və qayda pozuntusu aşkar edildiyi halda sürücü barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 346.9-cu maddəsinə əsasən 2 cərimə balı və 60 manat məbləğində cərimə tətbiq ediləcəkdir. Odur ki, sürücülərdən dayanma və durma qaydalarına ciddi şəkildə riayət etmələrini və yol hərəkətinin ən müdafiəsiz iştirakçıları olan piyadalara maneə yaratmamalarını xahiş edirik", - deyə məlumatda qeyd edilir.

## ABŞ azərbaycanlıları deportasiya etdi

**Fevral ayında ölkəni qeyri-qanuni mühacirlərdən "təmizləmək" kampaniyası çərçivəsində ABŞ-dan deportasiya edilən 200 nəfərlik bir qrup təyyarə ilə Kosta Rikaya aparılıb. Deportasiya edilənlər arasında Azərbaycan, Ermənistan, Türkiyə, Çin, Rusiya, Gürcüstan, Qazaxıstan, Hindistan, Özbəkistan, Konqo, Vyetnam və Nepal vətəndaşları olub.**

Kosta Rika hökuməti bildirib ki, ABŞ Dövlət Departamenti bu insanlara humanitar yardım və qayğı göstərmək üçün Beynəlxalq Miqrasiya Təşkilatına (IOM) maliyyə dəstəyi verir. Bununla belə, Kosta-Rikanın cənubundakı Panama ilə sərhədə yaxın Korredores şəhərində yerləşən CATEM sığınacağındakı şərait İnsan Haqları İzləmə Təşkilatı və ayrı-ayrı deputatlar da daxil olmaqla, hüquq qruplarının tənqidinə səbəb olub.

YENİ MÜSAVAT
N 58 (8668) 9 aprel 2025

# Dollar Azərbaycanda "gizlənməyə" başladı

## Mərkəzi Bank banklara gündəlik satılan xarici valyutanın məbləğini açıqlamamaq qərarını necə izah edir?; iqtisadçı deyir ki, manatın...

**Bu günlərdə Mərkəzi Bankın hərraclarda banklara nə qədər dollar satdığı barədə məlumat açıqlamamaq qərarı maliyyə dairələri ilə yanaşı ictimaiyyətdə də haqlı narahatlıq yaradıb. Mərkəzi Bankdan verilən "hərraclarda formalaşan məzənnənin sabit qalması və bankların valyuta tələbinin tam qarşılanması səbəbindən bu məlumatların ictimaiyyətə təqdim edilməsi artıq aktual hesab olunmur" açıqlaması isə narahatlığı azaltmayıb.**

Neftin qiymətində ötən həftə başlayan eniş fonunda Mərkəzi Bank aprel ayının 1-nə olan valyuta ehtiyatlarını açıqlayıb. Son bir ayda 0.32% və ya 34.7 milyon dollar artaraq 11 milyard 26.5 milyon dollara çatıb. Ekspertlərə görə, bu artım cüzidir, son 1 ildə ehtiyatların 5.4% və ya 627.9 milyon dollar azalmasının yanında kiçik rəqəmdir. Mərkəzi Bank ötən 1 ildə ehtiyatların hansı səbəbdən bu qədər əriməsinə aydınlıq gətirməyib. Amma ötən il və 2025-ci ilin əvvəlində valyuta bazarında baş verənlərə nəzər saldıqda ehtiyat valyutanın hara xərclədiyi barədə təsəvvür yaranır.

Qeyd edək ki, 2024-cü il ərzində banklara ümumilikdə 7.7 milyard dollardan çox valyuta satılıb. Bu göstərici 2023-cü illə müqayisədə 84.8% çoxdur. Həmin il ərzində keçirilən valyuta hərraclarında cəmi 3 milyard 878.53 milyon dollar satılmışdı.

2025-ci ilin yanvar ayı ərzində isə Mərkəzi Bankda keçirilən 8 valyuta hərracında 500 milyon dollara yaxın valyuta satılıb. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 19.6 faiz çoxdur. Ötən ilin yanvar ayı ərzində keçirilən 7 valyuta hərracında banklara 417.1 milyon ABŞ dolları satılmışdı.

Ekspertlər bu gizliliyin səbəbini valyuta bazarında mümkün panik əhval-ruhiyyə yaranmasının qarşısını almaq istəyi ilə izah edirlər. Mərkəzi Bank bankların dollar alışı barədə məlumatları açıqladıqda ictimaiyyət də əl-ayağa düşüb dollar alır, kimi bankdakı manat depozitini dollara çevirir, kimi də ümumiyyətlə pulu "yastıq altında" saxlamağa yönəldir.

Xatırladaq ki, Azərbaycan 2015-ci ildə iki dəfə devalvasiyanın acı təcrübəsini görüb. Həmin dövrdə Mərkəzi Bank manatın məzənnəsini qorumağa milyardlarla dollar xərclədikdən sonra qəflətən devalvasiya qərarı verdi. Nəticədə iqtisadiyyata ağır zərbə dəydi, bankların, şirkətlərin, iş adamlarının, sadə vətəndaşların borcu dəfələrlə artdı, onların bir çoxu müflisləşdi. Azərbaycan iqtisadiyyatı bəzi parametrlər üzrə hələ də devalvasiyaya qədərki göstəricilərini bərpa edə bilməyib.

**İqtisadçı Elman Sadıqov mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini açıqlayıb:** "Mərkəzi Bankın aprel ayında açıqlayacağı faiz qərarına qədər dünyada bir çox proseslər baş verəcək. Hadisələr çox sürətlə cərəyan edir. Hər bir halda, son hadisələr göstərdi ki, dünya birjalarında müəyyən bir stabilləşmə var, xüsusilə ABŞ-ın birjası - Dow Jones geri bərpa prosesi keçdi, yeni satılan səhmlər yenidən investorlar tərəfindən alındı. Ən çox zərər Asiya birjalarında oldu. Honq Konq birjası 13 faiz, Yaponiya birjası, Çin birjaları və sair. Nəticədə çox ciddi enişlər sonradan investorlar tərəfindən alışlarla tədricən bərpa olunacaq.

Açıq-aşkar görünən budur ki, həm Amerika özü, həm də investorlar bu prosesə hazırlıqlı olublar. Yəni əllərdə kifayət qədər böyük nağd vəsait var və həmin nağd vəsait hazırda birjalarda alışlara yönləndirilib. Amma hələ aprel ayında nələrin baş verəcəyi, hadisələrin birdən-birə müsbət və ya mənfi istiqamətdə kəskin bir şəkildə cərəyan edəcəyi hələlik bəlli deyil. Əlbəttə, tariflər ümumiyyətlə iqtisadiyyata heç bir zaman müsbət təsir göstərməyib, xüsusilə də bu qədər geniş tətbiq olunan tariflər iqtisadiyyatlara ümumilikdə müsbət nəticə verə bilməz. Burada bəzi ölkələr, əlbəttə ki, bu məsələlərdə uduzacaqlar, bəzi ölkələr isə, ayrı-ayrı lokal iqtisadi güc mərkəzlərində müəyyən resessiyaların və yaxud da geriləmələrin, problemlərin çıxacağı ehtimalı ilə qarşı-qarşıyadır".




**İqtisadçı qeyd edir ki, bu səbəbdən Mərkəzi Bank bu məsələlərdə ehtiyatlı mövqe sərgiləyir:** "Ən əsas məsələlərdən biri ajiotaja yol verməməyə çalışır. Çünki burada önəmli olan məsələ həm də gözləntilərin düzgün bir şəkildə formalaşmasıdır. Yanlış gözləntilərə imkan yaratmaq, əlbəttə ki, müəyyən fəsadlarla nəticələnə bilər. Düşünürəm ki, istər dünyada enerji qiymətləri ilə bağlı mövcud tendensiya, istər dünyada inflyasiyanın artma meylləri, istərsə də müxtəlif ölkələrdə, müxtəlif güc mərkəzlərində resessiya gözləntiləri və s. nəzərə alınaraq, Mərkəzi Bank hazırda faiz artımına gedəcək. Faizlərin artırılması baş verdikdən sonra bu məsələdə ən önəmli amillərdən biri növbəti mərhələdə kredit faizləri ilə bağlı olacaq. Hazırda ən önəmli məsələ, ən vacib amil - monetar siyasət aləti kimi faiz dərəcələrinin artırılmasıdır. Uçot faiz dərəcəsi və faiz dərəcələrinin aşağı-yuxarı həddinin artırılması ehtimalı yüksəkdir".

Bu arada, Mərkəzi Bank tərəfindən təqdim edilən bir günlük təminatsız kreditlər üzrə orta gəlirlilik 7.63 faizə yüksəlməklə bençmark faizlərini üstələyib. Yeni Müsavat Banker.az-a istinadən xəbər verir ki, bir günlük təminatsız kredit faizləri son bir ayda 7 faizdən aşağı düşmüşdü. AMB 2024-cü ilin mayından etibarən uçot faiz dərəcəsinin aşağı həddi - 6.25%, yuxarı həddi 8.25% və uçot faiz dərəcəsi 7.25% müəyyən edib. Bakı Fond Birjasında repo faizləri də müxtəlif vaxtlar üzrə yüksəlib.

**Elman Sadıqov ABŞ-da son günlər yaranan vəziyyətlə bağlı mövqeyini də bildirib:** "Orada vəziyyət görünəndən də kritikdir və buna görə dövlət bu addımları atmağa məcbur olur. Tətbiq olunan tariflər yalnız proteksionist siyasət kimi təhlil oluna bilməz. Əslində proteksionist siyasət belə olmur və proteskionist siyasət baxımından hətta yanlış addımdır. Çünki proteksionist siyasət seçmə olur, bu şəkildə kütləvi olmur. Xammal, faydalı resurslara tətbiq olunmur. Çünki bununla ABŞ həm də istehsalın maliyyətini artırır, rentabelliyi azaldır! Son 3 ay ərzində demək olar ki, bütün proqnozlar doğru çıxır. Neftin qiyməti də sürətlə enməyə başladı. Deməli, ABŞ-ın bu tarif siyasəti kaprizdən deyil, zərurətdən doğan addım imiş ki, sözünə baxmayan dünyanı yeni və böyük həcmli qlobal böhranla üzləşdirib masaya oturtsun! Kimin bu böhrandan necə çıxacağı da sual altındadır!

Keçən il də demişdim, dünya tarixində ilk dəfə yeni bir düzəni qlobal müharibəsiz formalaşdırmağa cəhd edirlər. Lakin görünən odur ki, 1929-1933-cü il böhranının nəticələrini iqtisadi addımlarla aradan qaldıra bilməyən ABŞ bunu II Dünya müharibəsindən istifadə edərək həll etdi və hətta özü dünyanın bir nömrəli gücünə, valyutası qlobal valyutaya çevrildi, sistem də onun istədiyi petrodollar sistemi oldu. İndi müharibəsiz yeni düzən alınmır. Regional müharibələr kifayət etmir. Nüvə silahı səbəbindən baş tutmayan qlobal müharibələri qlobal böhran əvəz edə biləcək?

Bir də tez-tez soruşurlar ki, Avropa və ABŞ-ın Qafqaza marağı niyə artıb? Cavab genişdir, lakin sadədir. Son 500 il ərzində yeni düzənin formalaşması Avropadan başlayıb. İndi isə bu düzən Yaxın Şərq və regionumuzdan formalaşmağa başlayıb. Qafqaz, Türkiyə, Suriya, Yaxın Şərq...

Dünyanın istisnasız olaraq demək olar ki, hər bir ölkəsi ən çətin dövrə qədəm qoyur. Açığı, əslində 2025-ci ilin ən təlatümlü illərin başlanğıcı olacağı gözlənilirdi. Bir neçə gün öncə Makron Avropanı ABŞ-a investisiya qoyuluşlarını saxlamağa çağırdı. Beləliklə, ABŞ tərəfindən elan olunan ticarət müharibəsi iqtisadi müharibəyə keçir. Belə bir gedişatda isə hər bir ölkə iqtisadi siyasətinə vaxt itirmədən yenidən baxmağa məcburdur".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# Sabiq nazir və Abutalıbov haqda ilginc iddialar

## Qarayev biznesdə qazanır, Bakı meri paytaxtdan kənarda yaşayır





**Sabiq mədəniyyət naziri Əbülfəs Qarayevin Rusiyada fəaliyyət göstərən şirkəti ötən il 146 milyon 636 min rubl (1 milyon 585 min dollar) gəlir əldə edib. Əbülfəs Qarayev 2023-cü ilin may ayında Rusiyada "Korporasiya ÇE" (OOO "Korporaüiə ÇE" - İNN: 7725322819) adlı şirkətin 50 faizlik payını satın alaraq, iki təsisçidən biri olub.**

"Korporasiya ÇE" şirkətinin digər təsisçisi - Əbülfəs Qarayevin biznes ortağı, Rusiya vətəndaşı Levkoviç Aleksandr Nikolaeviçdir. Hər iki təsisçinin şirkətin nizamnamə kapitalındakı payı 10 000 rubl təşkil edir.

Qeyd edək ki, "Korporasiya ÇE" şirkəti 11 iyul 2016-cı ildə dövlət qeydiyyatına alınıb. Əbülfəs Qarayev şirkətin 50 faizlik payına sahib olduqdan sonra hüquqi ünvan Moskva şəhəri, Dnepropetrovskaya, ev 3, korpus 5, mənzil 3/1 ünvanına dəyişdirilib.

Şirkətin fəaliyyət sahəsinə balıq, xərçəngkimilər və molyusklar da daxil olmaqla, digər ərzaq məhsullarının topdan satışı daxildir.

Məlumat üçün bildirək ki, "Korporasiya ÇE" şirkətinin 2023-cü ildəki ümumi gəlirləri 106 milyon 521 min rubl olub. Bir il əvvəl - 2022-ci ildə isə şirkətin ümumi gəlirləri cəmi 554 min rubl təşkil edib. Rəqəmlərdən də göründüyü kimi, Əbülfəs Qarayev şirkətin 50 faizlik payına sahib olduqdan sonra gəlirlər 192 dəfə artıb.

Onu da bildirək ki, 2023-cü illə müqayisədə ötən il şirkətin gəlirləri 39 faiz və ya 41 milyon 247 min rubl artsa da, xalis mənfəəti 41 faiz və ya 219 min rubl azalaraq 312 min rubl (3,4 min dollar) olub.

Xatırladaq ki, 1994-cü ildən 2020-ci ilə qədər - 26 il nazir vəzifəsində çalışan Əbülfəs Qarayevin qızı Suad Maleki (Qarayeva) də uzun illərdir Rusiyada biznes fəaliyyəti ilə məşğuldur.

Suad Malekinin yeganə təsisçisi olduğu "GALS" şirkəti 5 iyul 2013-cü ildə Moskva şəhəri, Tatar küçəsi 7 ünvanında dövlət qeydiyyatına alınıb. Şirkət daşınmaz əmlakın alqı-satqısı ilə məşğuldur.

Mətbuatda yayılan məlumatda bildirilir ki, "GALS" - sabiq nazirin özünün və ailə üzvlərinin adlarının baş hərflərindən (Garaev, Abulfas, Lalə (həyat yoldaşı) və Suad (qızı)) ibarətdir. "GALS" şirkətinin ötənilki gəlirləri 7 milyon 560 min rubl (81,7 min dollar), xalis mənfəəti isə 7 milyon 17 min rubl (75,8 min dollar) olub.

Moderator.az Bakının sabiq meri Hacıbala Abutalıbov haqda yazıb. Bildirilir ki, son zamanlar sabiq meri "gördüm" deyən yoxdur. Sonuncu dəfə ictimaiyyət onu YAP-ın qurultayında görüb.

Deyilənə görə, Abutalıbov hazırda Bakıdakı çoxsaylı evlərinin və villalarının heç birində yaşamır. Onun Qaxda, İlisuda, təbiət qoynundakı malikanəsində məskunlaşdığı, necə deyərlər, "orqanik həyat yaşadığı" barədə xəbərlər var.

❑ **"Yeni Müsavat"**

**Türkiyənin Antalya şəhərində 11-13 aprel tarixlərində ənənəvi Antalya Diplomatiya Forumu keçiriləcək. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın himayəsi və Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinin ev sahibliyi ilə keçiriləcək budəfəki forum “Bölünmüş dünyada diplomatiyanın bərpası” mövzusuna həsr olunub.**

# “Türkiyə Davosu” başlayır - dünya üçün aprel tezisləri

## Dünyada diplomatiyanın bərpası zərurəti yaranıb

Forumun rəsmi saytında yer alan məlumata əsasən, Prezident İlham Əliyevin rəhbərlik edəcəyi Azərbaycan nümayəndə heyətində birinci vitse-prezident Mehriban Əliyeva, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov, xarici işlər naziri Ceyhun Bayramov və digər rəsmi şəxslər yer alır.

Azərbaycan KİV rəhbərlərindən bəziləri də forumun işini müşahidə etmək üçün dəvət edilib.

Qeyd edək ki, Antalya Diplomatiya Forumu diplomatiyanın kursu necə dəyişdirə biləcəyini araşdırmaq və bölünmüş dünyada kollektiv fəaliyyət üçün ümumi zəmin tapmaq üçün qlobal liderləri, siyasətçiləri, alimləri, biznes ekspertlərini, media və vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirəcək. Forum getdikcə qütbləşən mühitdə diplomatiyanın rolunu və əsas prinsiplərini yenidən müəyyən etmək üçün dialoqa ilham vermək məqsədi daşıyır. Bu səbəbdən Antalya Forumu “Türkiyə Davosu” da adlandırıla bilər. Antalya Diplomatiya Forumu ölkəmiz üçün mühüm platformadır, burada Azərbaycanın regional yeri və rolu, 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Qələbədən sonra bölgədə yaranmış yeni geosiyasi münasibətlərin faydalılığı və sülh və təhlükəsizlik təşəbbüsləri dünyaya təqdim olunur.




**Milli Məclisin deputatı Hikmət Babaoğlu “Yeni Müsavat”a bildirdi ki, Antalya Diplomatiya Forumunun keçirilməsi artıq ənənə halını alıb və dünyada mövcud problemlərin həll olunması ilə bağlı böyük fikir fırtınası mərkəzlərindən birinə çevrilib:** “Hazırda dünyada siyasi proseslər o qədər sürətlə baş verir ki, onların təhlili, proqnozlaşdırılması, diplomatik yanaşmaların nəzərdən keçirilməsi zərurəti yaranıb. Məhz beynəlxalq münasibətlər sistemində boşluğun olduğu bir vaxtda Antalya Diplomatiya Forumunun keçirilməsinə başlandı və qısa müddətdə dünyanın diqqətini cəlb etməyi bacardı. Azərbaycan da şübhəsiz ki, Antalya Diplomatiya Forumunda həvəslə çıxış edir. Hər şeydən öncə ona görə ki, Türkiyə bizim üçün doğma məkandır. Həm siyasi, həm iqtisadi, həm tarixi baxımından. İkincisi isə ona görə ki, beynəlxalq münasibətlər sistemində Azərbaycanın artan nüfuzu, yeri və rolu yeni dünya nizamı kontekstində ən müxtəlif mövqelərə təsir edə biləcək qədər güclənib. Ən azından Cənubi Qafqaz regionu kontekstində bu belədir. Bir qədər də dərindən nəzər salsaq və Azərbaycanın Avropa, Yaxın Şərq ölkələri ilə, o cümlədən Rusiya ilə münasibətlərinə diqqət yetirsək görəcəyik ki, Azərbaycanın mövqeyi Çindən başlamış Avropaya qədər uzanan yolda əhəmiyyətli bir mövqedir. Bütün bunlar gələcək dünya nizamı üçün Azərbaycanın da mövqeyinin nəzərə alınmasını zəruri edir. Yüksək səviyyədə Antalya Diplomatiya Forumunda iştirak etməsi Azərbaycanın mövqeyinin, imkanlarının və yeni dünya nizamında baxışının bir daha dünyaya çatdırılması hadisəsidir. Ona görə də gələcək dünya nizamının arxitekturasının formalaşması üçün Antalya Forumu vasitəsilə veriləcək mesajların, dövlətlərin təşəbbüslərinin, ideyalarının çox əhəmiyyətli olduğu bir daha üzə çıxmaqdadır. Şübhəsiz ki, Antalya Diplomatiya Forumu Davos İqtisadi Forumu ilə müqayisə olunur. Davos Forumu əsas etibarilə iqtisadi məsələlərin, Antalya Forumu isə siyasi-diplomatik məsələlərin müzakirə olunduğu bir məkandır”.

**Deputat onu da dedi ki, Antalya Diplomatik Forumunun budəfəki mövzusunun adı da çox maraqlıdır:** “Bu ad diplomatiyanın imkanlarının nəzərdən keçirilməsinə həsr olunub. Diplomatiyanın bərpası o deməkdir ki, diplomatiya artıq arxa plana keçib. Halbuki beynəlxalq münasibətlərin və dövlətlərarası xarici siyasətin həyata keçirilməsinin əsas aləti diplomatiyadır. Ancaq son dövrlər o sıradan çıxıb. Ona görə də onun bərpası zərurəti var. Bu, özü-özlüyündə bu forumun nə qədər əhəmiyyətli olmasından xəbər verir”.

**Milli Məclisin deputatı Elçin Mirzəbəyli** bildirdi ki, Antalya Diplomatiya Forumu (ADF) zamanla regional və qlobal əhəmiyyətə malik mühüm platformaya çevrilməkdədir və forumun “Türkiyə Davosu” kimi təqdim olunması müəyyən mənada əsaslıdır. Bu forum, siyasi liderlər, diplomatlar, akademiklər və biznes nümayəndələrini bir araya gətirən və beynəlxalq münasibətlərin aktual çağırışlarının müzakirə olunduğu unikal dialoq platformalarından biri hesab oluna bilər: “Prinsip etibarilə, Davos kimi, ADF də yumşaq güc, diplomatik dialoq və çoxtərəfli əməkdaşlıq üçün yeni imkanlar yaradır. Forumun ölkəmiz üçün əhəmiyyətinə gəldikdə isə bu platforma Azərbaycanın regionun mühüm oyunçusu kimi öz mövqeyini təqdim və təbliğ etməsi üçün əlavə fürsətdir. Məlum olduğu kimi, forum ikitərəfli görüşlər üçün də əlverişli şərait yaradır və bu da yeni əməkdaşlıqların qurulması və mövcud münasibətlərin dərinləşdirilməsi baxımından faydalıdır. Forum eyni zamanda Azərbaycanla Türkiyənin strateji müttəfiqliyinin doğurduğu nəticələrin əhəmiyyətinin vurğulanması baxımından da önəm daşıya bilər. Qənaətimə görə, "Bölünmüş dünyada diplomatiyanın bərpası" mövzusu hazırkı beynəlxalq sistemin reallıqları fonunda son dərəcə aktual bir məsələdir. Hazırda dünya ayrı-ayrı güc mərkəzləri arasında artan geosiyasi gərginlik, bölgəsəl münaqişələr, beynəlxalq hüququn selektiv tətbiqi, qlobal ticarət savaşları və ideoloji qarşıdurmalar şəraitində yaşayır. Bu da beynəlxalq münasibətlər sistemində qütbləşməni daha da dərinləşdirir və münasibətləri barışmaz hala gətirir. Diplomatiya isə münaqişə tərəfləri arasında körpü yaratmaq üçün yeganə alətdir. Diplomatik təşəbbüslər vasitəsilə qarşıdurmaların yumşaldılması, kompromislərə nail olunması, anlaşılmazlıqların danışıqlar yolu ilə aradan qaldırılması mümkündür. Diplomatiya yalnız dövlət maraqları deyil, qlobal humanitar çağırışlar (iqlim dəyişikliyi, enerji və ərzaq təhlükəsizliyi, qaçqın məsələsi) istiqamətində də yönləndirilməlidir və biz Azərbaycanın qlobal çağırışlara münasibətində uzun illərdir ki, bu yanaşmanın ön planda dayandığını görə bilirik".

Deputat qeyd etdi ki, “Bölünmüş dünyada diplomatiyanın bərpası” mövzusu yalnız diplomatiyanın yenidən aktuallaşdırılması deyil, həm də onun yenidən inşa edilməsi zərurətini vurğulayır. Yalnız qarşılıqlı etimad və çoxtərəfli yanaşma əsasında diplomatiya qütbləşmənin qarşısını ala, yeni soyuq müharibə xətlərinin yaranmasına mane ola bilər.

**Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**




## İki türk dövləti niyə yunan Kiprində səfirlik açdı?

**Qazaxıstandan sonra Türkmənistanın da Kipr Respublikasında səfirlik açması türk dövlətlərinin Şimali Kipr məsələsindəki mövqeyini yenidən gündəmə gətirib. Məsələ ilə bağlı Axar.az-a danışan türkiyəli politoloq Engin Özər bildirib ki, bu addımlar əsasən iqtisadi maraqlardan qaynaqlanır və burada qeyri-adi heç nə yoxdur.**

Politoloqun sözlərinə görə, Avropa Birliyi, xüsusilə Fransa bu regiona ciddi investisiyalar yatırır və bu da türk dövlətlərinin Kipr Respublikası ilə əlaqələr qurmasına səbəb olur: “Türkmənistandan belə bir addımın gəlməsi təəccüblü deyil. Türkmənistan və Türkiyə münasibətləri əslində o qədər də qardaşlıq xarakterli deyil. Bu məsələ bir qədər şişirdilir”.

Onun sözlərinə görə, Türk Dövlətləri Təşkilatı Şimali Kiprə qarşı atılan bu addıma ciddi reaksiya verməyəcək: “Türk Dövlətləri Təşkilatı mədəni bir quruluş olaraq qalacaq, siyasi təşkilata çevrilməsi isə çətindir. Türkiyənin hər diplomatik addımı Rusiya ilə münasibətləri riskə atdığı üçün üzv ölkələr bu mövzuda daha ehtiyatlı davranır. Artıq Türkiyənin bu məsələdə ciddi gözləntisi olmamalıdır. Bu ölkələrin heç biri Türkiyənin bu mövqeyini açıq şəkildə dəstəkləmir. Heç bir ölkə bu istiqamətdə təşəbbüs göstərmir. Şimali Kipr məsələsini Türkiyə özü həll etməlidir. Cənubi Kipr isə beynəlxalq aləmdə tanınır və Şimali Kipr də əksər dövlətlər tərəfindən onun bir hissəsi kimi qəbul olunur. Hazırkı diplomatik vəziyyət belədir”.

**Politoloq Elxan Şahinoğlu isə bildirib ki, Türkiyə türk dövlətlərindən Şimali Kipr Türk Cümhuriyyətinin müstəqilliyini tanmasını istəyirdi, ancaq bu, baş vermədi:** “Belə anlamaq olar ki, Orta Asiya ölkələrinin Şimali Kipri tanımaq niyyəti yoxdur. Hətta TDT-yə üzvlük məsələsində də bu ölkələr Şimali Kiprin qarşısını alırlar. Əgər bu dövlətlər sonradan Şimali Kipri tanımaq niyyətindədirlərsə, ən məntiqli addım hər iki tərəfi - həm Cənubi, həm də Şimali Kipri eyni vaxtda tanımaq olardı. Ən narahatedici məqam isə ondan ibarətdir ki, adıçəkilən ölkələr Kipr Respublikasında səfirlik açmaq və əlaqələri genişləndirmək istəyirlər. Ankara bu məsələdə Mərkəzi Asiyadakı tərəfdaşları ilə ciddi dialoqa başlamalıdır”.

YENİ MÜSAVAT
N 58 (8668) 9 aprel 2025

# Nazir iki milyardlıq saziş üçün Pakistanda

## İslamabadda razılaşmanı iqtisadiyyat naziri Mikayıl Cabbarov imzalayacaq; Ermənistan iki ölkənin daha da yaxınlaşmasından təlaşa düşüb

**Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov investisiya layihələri üzrə sazişlərin bağlanması üçün aprelin 8-də Pakistana səfər edib.**

Pakistan Xarici İşlər Nazirliyindən verilən məlumata görə, səfər çərçivəsində Mikayıl Cabbarov Pakistanın baş naziri Şahbaz Şəriflə görüşəcək və Pakistan baş nazirinin müavini və xarici işlər naziri Məhəmməd İshaq Darın rəhbərlik etdiyi nümayəndə heyəti ilə investisiya məsələləri üzrə danışıqlar aparacaq.




Azərbaycanın Pakistan iqtisadiyyatına 2 milyard dollar civarında investisiya yatıracağına dair ilk məlumatı Prezident İlham Əliyev 2024-cü ilin iyulunda müttəfiq ölkəyə səfəri zamanı açıqlayıb.

Qeyd edək ki, bu ilin fevral ayında Pakistanın baş naziri Şahbaz Şərif Bakıda olub. O deyib ki, hər şey müzakirə edildikdən və qərar qəbul olunduqdan sonra apreldə İslamabadda 2 milyard dollar dəyərində razılaşma imzalanacaq.

"Bu, bizim ticarət və investisiya münasibətlərimizdə ilk keyfiyyətli sıçrayış olacaq və qardaşlıq əlaqələrimizi əhəmiyyətli dərəcədə əks etdirəcək", - deyə baş nazir Bakıdakı çıxışında bildirib.

Prezident İlham Əliyevin sözlərinə görə, Azərbaycan Pakistanda müxtəlif layihələrə minimum 2 milyard dollar sərmayə yatırmağa hazırdır. Bu investisiyalar əsasən neft və qaz kəşfiyyatı, bərpa olunan enerji mənbələrindən istifadə və enerji səmərəliliyinin artırılmasına yönələcək.

Pakistan üçün neft emalı sektoru da iqtisadiyyatın əsasını təşkil edir, çünki bu, enerji təhlükəsizliyi və ölkə ÜDM-nin artımı üçün çox vacibdir. Azərbaycanın həm neft emalı, həm də neft-kimya sənayesində müsbət təcrübəsi var. Belə bir təcrübə ilə Azərbaycanın Pakistanda böyük oyunçularla birlikdə layihədə iştirakı bir neçə baxımdan ölkə üçün mühüm faydalar gətirə bilər. Bundan əlavə, Pakistan hökumətinin neft emalı sektorunda investorlara təklif etdiyi bir sıra imtiyaz və üstünlükləri nəzərə alsaq, Azərbaycan neft emalı zavodunun tikintisinin iştirakçısına çevrilməklə kommersiya baxımından kifayət qədər uğurlu investisiya layihəsinə sərmayə qoya bilər. Bu isə qoyulan sərmayələrin qısa müddətdə özünü doğrultmasına, Azərbaycanın layihədən iri-həcmdə qazanc əldə etməsinə gətirib çıxaracaq.

**Milli Məclisin deputatı Azər Badamov** "Yeni Müsavat"a söylədi ki, Azərbaycanla Pakistan arasında siyasi münasibətlər çox yüksək səviyyədə olsa da, iqtisadi münasibətlər iki ölkə arasındakı qardaşlıq münasibətlərinin ruhuna uyğun gəlmir: "Dövlət başçılarımızın qarşılıqlı səfərləri və imzalanmış razılaşmalar iki ölkə arasında münasibətlərin dərinləşməsində yeni mərhələ açır. Cənab Prezidentin Pakistana və Pakistanın Baş nazirinin Azərbaycana səfərləri çərçivəsində iki ölkə arasında 2 milyard dollarlıq böyük investisiya layihələrinin həyata keçiriləcəyi ilə bağlı anons verilmişdi. 8 apreldə iqtisadiyyat naziri Mikayıl Cabbarovun Pakistana səfəri çərçivəsində keçirəcəyi görüşlərdə dövlət başçılarının açıqladığı həmin investisiya layihələrinin həyata keçirilməsi üçün addımların atılacağını hesab edirəm. İki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün potensial çox böyükdür. Xüsusilə neft-qaz, kimya sənayesi sahələrində Azərbaycan Dövlət Neft Şirkəti böyük təcrübə qazanıb. SOGAR artıq beynəlxalq şirkətə çevrilib. Bu baxımdan Pakistanın neft qaz sektoruna, neft emalı və kimya sənayesinə investisiyalar yatırmaqla qarşılıqlı şəkildə fayda götürmək mümkündür. Həm də Pakistanın neft-qaz ehtiyatlarının istismarı ilə bağlı tədqiqat işlərinin aparılmasında iştirak edəcəyik. Ölkələrimiz arasında investisiya layihələrinin həyata keçirilməsi iqtisadi əməkdaşlığımızı yeni bir mərhələyə çıxaracaq. Bəli, bunu siyasi sahədə dost və qardaş olduğumuz kimi digər sahələrdə də, xüsusilə iqtisadi əməkdaşlıqda da sübut etməliyik".

**Siyasi təhlilçi Sona Əliyevanın sözlərinə görə, Pakistanla Azərbaycan arasındakı siyasi-iqtisadi əlaqələr hazırda özünün ən yüksək zirvəsinə yüksəlib:** "Hələ 1991-ci ildən qurulan diplomatik əlaqələr 34 illik sınaqdan hər zaman üzüağ çıxıb. Otuz illik işğal dövründə qardaş Pakistan hər zaman Azərbaycanın yanında olub. Bakı və İslamabadın siyasi arenalarda əsas dəstəkçilərindəndir. Ölkəmiz bu qardaş ölkənin haqq işində - Kəşmir məsələsində Pakistanın ərazi bütövlüyünü tam dəstəkləyir. Hərbi-texniki əməkdaşlıq da göz önündədir. Zaman-zaman ordularımız da birgə hərbi təlimlərdə iştirak edirlər. 44 günlük savaşda da Pakistan bütün gücü və varlığı ilə Azərbaycanın yanında idi. İndi əməkdaşlıq və tərəfdaşlığın iqtisadi boyutunun tarixi qızıl səhifələri yazılır. Söhbət 2 milyard dollarlıq sazişdən gedir. Neft-qaz və yaşıl enerji sahəsində Azərbaycan kifayət qədər təcrübəli ölkədir. Pakistan rəqibi Hindistanla müqayisədə bu sahədə bir az axsayır. Ona görə də açıq nöqtələri qapatmaq üçün Azərbaycana üz tutub. Düşünürəm ki, bu sazişdən hər iki ölkə qazanacaq. Ən əsası, yeni birgə layihələr yaşıl enerji bazarına öz töhfələrini verəcək. Eyni zamanda Pakistan və Azərbaycan iqtisadiyyatı daha geniş coğrafiyalara ayaq açacaq. Azərbaycanın neft-qaz mütəxəssisləri həmin coğrafiyalarla bağlı zəngin təcrübəyə malikdirlər. Çünki sovet dövründə bizim mütəxəssislər Hindistan-Tacikistan-İran qovşağında bir sıra geoloji kəşfiyyat işlərinə qatılıblar. Üstəlik, uğurlu nəticələr də əldə ediblər. Düşünürəm ki, Pakistan tərəfi məhz bu amilləri də nəzərə alıb. Pakistan öz neft-qaz tələbatını tam ödəmək istəyir. Çindən və digər ölkələrdən asılılığını azaltmağı düşünür. Azərbaycan iqtisadiyyatı və investisiya diplomatiyası isə daha geniş coğrafiyalara yayılmağı qarşısına məqsəd qoyub. Fikrimcə, Mikayıl Cabbarovun İslamabad səfəri həm iqtisadiyyatımız, həm də diplomatiyamız üçün böyük hadisə sayılmalıdır".

Azərbaycan və Pakistan arasında əlaqələrin dinamik inkişafı isə Ermənistanı ciddi narahat etməkdədir. Bunu erməni ekspertlərinin, mediasının prosesə yanaşmasından da açıq şəkildə görmək mümkündür.

**"Armenianreport" portalı yazır ki, investisiya üçün ayrılan məbləğ açıq şəkildə Pakistanın Azərbaycana qarşı xüsusi münasibətini ifadə edir:** "Əslində biz bunu artıq 44 günlük müharibədə görmüşük. Pakistan Azərbaycanı dəstəkləyib. İndi də Pakistanla Azərbaycan arasında hərbi əməkdaşlıq genişlənir. Pakistan əvvəlcə "JF-17" qırıcılarının daha əvvəlki versiyasını təklif edib, lakin Azərbaycan bu təyyarələrin köhnəldiyini nəzərə alaraq, onların modernləşdirilmiş "Blok-3" versiyasına maraq göstərməyə başladı. Eyni zamanda bu seçim daha aşağı əməliyyat xərclərinə görə daha büdcə variantlıdır. Ümumiyyətlə, Pakistanın Azərbaycana yenidən kömək edəcəyini deməyə bütün əsaslar var. Bu şərtlər altında Ermənistan necə olacaq?"

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

# Azərbaycanla İsrail memorandum imzaladı



**Azərbaycan və İsrail arasından elm sahəsində əməkdaşlıq proqramına dair Anlaşma Memorandumu imzalanıb. "Report" xəbər verir ki, bunu rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev X sosial şəbəkəsində hesabında bildirib.**

"İsrailə səfər çərçivəsində innovasiya, elm və texnologiya naziri Qila Qamliel ilə görüş keçirdik. İnnovasiya, süni intellekt, kibertəhlükəsizlik, kosmos sahələrində əməkdaşlıq və qanunvericilik bazasının təkmilləşdirilməsi məsələlərini müzakirə etdik. İsrailin texnoloji şirkətlərini Azərbaycanda ofislər açmağa, biliyə əsaslanan istehsal müəssisələri, İT tədris mərkəzləri və yüksək texnologiyalar sahəsində Mükəmməllik Mərkəzi yaratmağa dəvət etdik", - deyə o qeyd edib.

# "SOCAR Trading"in baş icraçı direktoru dəyişdirildi


Natiq Mustafayev

**"SOCAR Trading"in baş icraçı direktoru vəzifəsinə yeni şəxs təyin edilib. Bu barədə şirkət məlumat yayıb. Məlumata görə, Natiq Mustafayev şirkətin baş icraçı direktoru təyin edilib. Natiq Mustafayev 2018-ci ildən bu vəzifədə çalışan Məryəm Almaszadəni əvəzləyib. Məryəm Almaszadə bundan sonra "SOCAR"ın tərkibində baş müşavir vəzifəsində çalışacaq.**

Şirkətin məlumatına görə, Mustafayev yüksək qiymətləndirilən makroiqtisadçı və uğurlu portfel meneceridir: "O, investisiya strategiyalarının hazırlanması və yüksək nəticə göstərən komandaların idarə olunması sahəsində dərin təcrübəyə malikdir. O, həmçinin dövlət rəsmiləri, iqtisadi siyasətçilər və korporativ qurumlarla işləyərək uğurlu qərarların qəbuluna və gəlirliliyin təmin olunmasına nail olduğu investisiya strategiyası sahəsində biznes və komandaların qurulması və idarə olunması təcrübəsi var. Onun karyerası həm özəl, həm də dövlət sektorunu əhatə edir. O, Azərbaycan Qiymətli Kağızlar Komissiyasında yüksək vəzifələrdə və "BP Azərbaycan" şirkətində kommersiya analitiki kimi çalışıb.

"Biz "SOCAR Trading"in qlobal miqyasda fəaliyyətini genişləndirməyə və məhsullarla coğrafiyalar üzrə portfelimizi şaxələndirməyə sadiqik. Strateji baxışa və nizamlı risk idarəçiliyinə əsaslanaraq, biz analitik imkanlarımızı gücləndirməyə, yeni tərəfdaş əlaqələri qurmağa və "SOCAR" ekosistemi boyunca dəyəri artırmağa çalışacağıq", - deyə "SOCAR Trading"in yeni təyin olunmuş baş icraçı direktoru Natiq Mustafayev bildirib.

Mustafayev Kolumbiya Universitetindən iqtisadiyyat üzrə magistr (M.Phil.) və magistr (M.A.) dərəcələrinə, Boğaziçi Universitetindən isə iqtisadiyyat və biznesin idarə edilməsi ixtisası üzrə bakalavr dərəcəsinə malikdir və universiteti birinciliklə bitirib. O, azərbaycan, ingilis, rus və türk dillərində sərbəst danışır.

YENİ MÜSAVAT
N 58 (8668) 9 aprel 2025

# Minsk Qrupu əvəzinə 3+3 formatı

## Özü böyük müharibə təhlükəsi ilə üzləşən İran niyə Qafqaza sülh "gətirmək" niyyətinə düşüb?

**Azərbaycan və Ermənistan arasında münaqişə sonrası sülh prosesləri hələ də davam edir. Günümüzün vacib məsələlərindən biri bölgədə davamlı sülhün əldə olunması və beynəlxalq hüquqa uyğun sülh müqaviləsinin imzalanmasıdır.**

İkinci Qarabağ müharibəsindən sonra iki ölkə arasında demarkasiya və delimitasiya məsələləri ön plana çıxıb. Rusiya bu prosesə vasitəçi olmaq istəyindən vaz keçmir. Bu kontekstdə Moskva 3+3 formatını Azərbaycan və Ermənistan arasında sülh platforması olaraq təklif edib. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun dediyinə görə, 3+3 formatı sülh prosesini sürətləndirmək və regional əməkdaşlıq üçün vacib bir mexanizm olacaq. Aprelin 7-də Moskvada Rusiyanın xarici işlər naziri Sergey Lavrovla bir sıra Avrasiya dövlətlərinin Rusiyada akkreditə olunmuş diplomatik nümayəndəliklərinin rəhbərləri arasında görüş keçirilib. Lavrov Avrasiyanın müxtəlif bölgələrində təhlükəsizlik vəziyyəti ilə bağlı fundamental qiymətlər verib. O, Yaxın Şərqdəki partlayış vəziyyətinə, Cənubi Qafqaz və Mərkəzi Asiyada sabitliyə təhlükələrə diqqət çəkib.




Rusiya bölgəni özünün təsir dairəsi olaraq gördüyü üçün digər moderatorları qəbul etməməklə yanaşı, Bakı və İrəvan arasında əldə olunacaq yekun sülhdə də öz "dəstəyini" vaxtaşırı təklif edir. Bu arada, rəsmi Tehranın aktiv siyasəti və hətta 90-cı illərin əvvəllərində olduğu kimi, Azərbaycanla Ermənistan arasında vasitəçilik etmək niyyətləri ortaya çıxmaqdadır. "Ermənistan və Azərbaycan arasında sülhə nail olmaq üçün 3+3 regional formatından istifadə edilə bilər". Bunu İranın Ermənistandakı səfiri Mehdi Sobhani deyib. "İran həm Ermənistan, həm də Azərbaycanla təmasdadır və sərhəddə sabitlik və sülhün tərəfdarıdır. Bu müzakirələr zamanı tərəfləri sülh sazişinin imzalanması istiqamətində hərəkət etməyə çağırırıq. İran hesab edir ki, gərginliyə səbəb olacaq istənilən addımdan çəkinmək lazımdır", - o qeyd edib. Səfirin sözlərinə görə, İran hakimiyyəti sülhə nail olmaq üçün tərəflərin təklif etdiyi istənilən formatı dəstəkləməyə hazırdır. "Düşünürəm ki, bu baxımdan 3+3 yaxşı regional formatdır və ondan istifadə edərək sülh sazişinə doğru irəliləmək olar", - M.Sobhani bildirib. Son günlər İranın İrəvandakı səfirinin ritorikasında xeyli dəyişiklik müşahidə olunur və əvvəlki illərin sərt ifadələrinə rast gəlinmir. Belə görünür ki, İranın bölgə ilə bağlı planları mövcuddur.

Maraqlıdır, Rusiyadan sonra İran da 3+3 formatında Azərbaycan-Ermənistan sazişinin imzalanmasına niyə belə maraq göstərir? İranın 3+3 formatı çərçivəsində saziş imzalanmasını gündəmə gətirməsinin nə önəmi var? Bu, Ermənistanın hələ də ləğv etmək istəmədiyi yeni Minsk Qrupu yaratmaq cəhdi deyilmi? Lakin bu, bir nonsesdir ki, özü böyük müharibə ilə üzbəüz qalan İran Qafqaza sülh "gətirmək" niyyətinə düşüb.

**Deputat Sahib Alıyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanla Ermənistan sülhə doğru əhəmiyyətli irəliləyiş sayıla biləcək əksər addımları indiyə kimi məhz ikitərəfli danışıqlar formatı çərçivəsində atıb: "Düzdür, Praqa görüşü kimi xırda istisnalar var, amma o görüşdə Paşinyana "Qarabağ Azərbaycandır" söylətdirən həmin görüşdən az qabaq, yəni 2022-ci ilin sentyabrında şərti sərhəddə təxribat törətməyə qalxan düşmənə ordumuzun verdiyi cavab oldu. Məhz ondan sonra havadarları ona Ermənistanın işğalçı imicinə son qoymasını məsləhət görmüş, özlərinin isə bundan sonra oradakı hayların hüquqlarını qorumaq adı altında "Qarabağı kosovolaşdıracaqlarını" vəd etmişdilər. Azərbaycan həm diplomatik müstəvidə, həm də bu sahədə ard-arda atdığı qabaqlayıcı addımlarla tək haylara deyil, Qərbdəki havadarlarına da bu məkrli niyyətlərini reallaşdırmağa imkan vermədi". **3+3 formatına gəldikdə, S.Alıyev bildirdi ki, bu haqda təşəbbüs Azərbaycan və Türkiyənin dövlət başçılarından gəlsə də, sülh platforması kimi vaxtı keçib**: "Çünki Azərbaycan Prezidenti İlham Əliyevin də bildirdiyi kimi, ikitərəfli format çərçivəsində sülh sazişi layihəsi üzərində işlər demək olar ki, tam başa çatıb. Qalır onun imzalanması üçün Azərbaycanın beynəlxalq hüquqa dayanan tələbini yerinə yetirmək. Rusiya, yaxud da İran göstərməyə çalışdıqları kimi, regionda doğrudan da sülhdə maraqlıdırlarsa, onda Ermənistanı Azərbaycanın haqlı tələbini yerinə yetirməyə çağırsınlar".

**Ermənişünas alim, Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı qeyd etdi ki, 3+3 formatı Moskvanın ideyası deyil, onu 44 günlük müharibədən sonra gündəmə Ərdoğan gətirib**: "Cənubi Qafqazda sülhü və əməkdaşlığı təmin edəcək bu formata qarşı olan ölkələrdən biri elə Rusiya idi, ikincisi isə İran. Bu ölkələr düşünürdülər ki, 3 Cənubi Qafqaz ölkəsi bir-biri ilə anlaşma əldə etsə, onların bölgədə təsir imkanları azalacaq. Rusiyanın Gürcüstandakı emissarları vasitəsilə bu formatın qeyri- mümkün olduğunu önə sürərkən də xüsusi məqsədi var idi: Qafqazı əlində saxlamaq və Türkiyənin aktivliyinin qarşısını almaq. Artıq bu, mümkün deyil. İndi Rusiyanın təsir imkanı azalıb deyə, Rusiya bu formatı yenidən işə salmaq istəyir. İran açıq şəkildə belə əməkdaşlığın əleyhinə idi, indi nə oldu, Rusiyadan gələn mesajlara dərhal reaksiya verir?" **Q.Çaxmaqlı hesab edir ki, belə bir formatın həyata keçməsi üçün Cənubi Qafqaz ölkəsinin də əməkdaşlığa hazır olması lazımdır**: "Ən azından Gürcüstan Rusiyaya görə bu formatdan hələ ki imtina edir. Ermənistan özü də Türkiyə və Azərbaycan faktoru ortada ikən bu əməkdaşlığa həvəslə getməyəcək. İdeya ortaya atıldığı gündən bəri heç nə dəyişməyib".

**Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi, siyasi ekspert Tural İsmayılov əmindir ki, 3+3 platforması bütövlükdə həm Cənubi Qafqaz regionunda, həm də Asiyada yeni reallıqlar yaradır**: "Əslində 3+3 əməkdaşlıq platforması dünya üçün yeni bir mənzərə formalaşdırır və praktiki olaraq bu platformada iştirak edən bütün ölkələr ortaya səmimi niyyətlər qoysalar, o zaman, doğrudan da, 3+3-ü çox ciddi əməkdaşlıq platforması kimi nəzərdən keçirmək mümkün olar. Bilməliyik ki, bu platformada iştirak edən hər bir dövlətin özünün bölgə ilə, dünyada baş verən siyasi proseslərlə bağlı fərqli mövqeləri ola bilər. Buna əsasən, 3+3 bir daha nümayiş etdirib ki, dövlətlərin qlobal münasibətlər sistemində bir-birindən fərqli mövqeləri mövcud olsa da, dünyanı narahat edən proseslərdə onların eyni mövqedən çıxış etmək imkanları var. Lakin Azərbaycanla Ermənistan arasında sülhün əldə olunması üçün əslində platforma da vacib deyil. Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirsə, sülh üçün heç bir əngəl qalmaz". **T.İsmayılovun fikrincə, Rusiya və İran Ermənistana təzyiq etməyi bacarmalıdır ki, konstitusiyasını dəyişsin:** "İran bu gün Ermənistanın Qərbin oyuncağı olmağına faktiki göz yumur, özü də müxtəlif aspektlərdə İrəvandan yararlanmaq istəyir. İran Minsk Qrupu formatının regional oxşarını yaratmağa çalışır. Bu cəhdlər əbəs və qəbuledilməzdir".

❑ **E.PAŞASOY, "Yeni Müsavat"**



## İran və ABŞ danışıqlara razılaşdı

**Aprelin 12-də Omanda İranın xarici işlər naziri Abbas Araqçı ilə ABŞ Prezidenti Donald Trampın xüsusi məsələlər üzrə nümayəndəsi Stiv Vitkoff arasında birbaşa görüş olacaq. Məlumata əsasən, Araqçı və Uitkoff Tehran və Vaşinqton arasında baş müzakirəçilərdir. Danışıqlar dolayı yolla Omanın xarici işlər naziri Bədr Əl-Busaidi vasitəsilə başlayacaq.**

ABŞ Prezidenti Donald Tramp Ağ Evdə Netanyahu ilə görüşü zamanı "İranla birbaşa danışıqlar aparırıq. Ola bilsin ki, əla olacaq bir razılaşma əldə olunsun. Şənbə günü ən yüksək səviyyədə görüşəcəyik və bunun necə olacağını görəcəyik" deyib.

İran məsələsini hərtərəfli müzakirə etdiklərini bildirən Tramp "Bu gün, açığını desəm, İranla bağlı məsələləri müzakirə etdik. İranla birbaşa danışıqlarımız var, bunlar hazırda davam edir və danışıqlar şənbə günü də davam edəcək. Məncə, razılaşmanın əldə olunması daha məqsədəuyğun olardı. Ümid edirəm ki, bu danışıqlar uğurlu olacaq" qiymətləndirməsini edib.

Qeyd edək ki, ötən il ABŞ və İran nümayəndələri Omanda Yaxın Şərqdəki gərginliyi müzakirə etmək üçün gizli görüş keçirmişdilər.

# Britaniya XİN-dən qəribə xəbərdarlıq: “Şuşaya da getməyin...”

## Hərbi qarşıdurma ehtimalı ciddiləşir?

**Böyük Britaniya Xarici İşlər Nazirliyi (FCDO) ölkə vətəndaşlarına Azərbaycanın cənub-qərbinə - Ermənistanla sərhədyanı bölgələrə getməməyi tövsiyə edib. Bununla bağlı Britaniya hökumətinin saytında məlumat dərc olunub. “Ermənistanla sərhəd bağlıdır. FCDO Azərbaycanla Ermənistan arasındakı gərginliklər səbəbindən Ermənistanla sərhədin 5 kilometrindən yaxın ərazilərə səyahət etməməyi tövsiyə edir”, - məlumatda bildirilib.**

Vurğulanıb ki, bu tövsiyə 2020 və 2023-cü illərdə münaqişədən təsirlənmiş bölgələri - Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Xocavənd, Şuşa, Xocalı, Xankəndi, Ağdam və Tərtər rayonlarını əhatə edir. Səyahət xəbərdarlığı Azərbaycanın Naxçıvan istiqamətində Ermənistanla sərhədinə aid deyil.

Britaniya Xarici İşlər Nazirliyinin açıqlamasına hələlik Azərbaycanın rəsmi qurumları münasibət bildirməyib.

Belə bir tövsiyənin verilməsini şərtləndirən vəziyyət mövcuddur? Hər hansı təhlükə, hərbi əməliyyat riski var ki, Britaniya XİN bu cür tövsiyə edib?

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** “Yeni Müsavat”a bildirdi ki, Ermənistan son zamanlar atəşkəsi intensiv şəkildə pozur. Atəşkəsin pozulması nəticəsində Azərbaycan hərbçiləri arasında itkilər olmasa da, bu, şərti sərhəddə müəyyən gərginlik yaradıb: “Ancaq sərhəddən kənarda, yeni Qarabağ və Şərqi Zəngəzurda gərginlik yoxdur, işğaldan azad olunan ərazilərdə tikinti işləri davam edir, insanlar yeni evlərə köçürülür. Buna baxmayaraq, Qarabağ və Şərqi Zəngəzurun bəzi hissələrində mina təhlükəsi mövcuddur. Son günlərdə minaların partlaması nəticəsində bir neçə hərbçimiz və mülki insanımız həlak olub. Əlbəttə, bu mənada işğaldan azad olunan bir qisim ərazidə təhlükə mövcuddur və həmin bölgələrdə minalardan təmizlənmə prosesi davam edir. Ancaq Böyük Britaniya Xarici İşlər Nazirliyinin xəbərdarlığı minalarla əlaqəli deyil, əks halda, xəbərdarlığında mina təhlükəsi barədə cümlələr yer alardı. Görünür, Londonda hesab edirlər ki, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasının uzanması və atəşkəsin intensiv pozulması bölgədə yeni bir toqquşmaya səbəb ola bilər. Mümkündür ki, bu səbəbdən Böyük Britaniya öz vətəndaşlarına işğaldan azad olunan ərazilərə səfər etməməyi məsləhət bilib. Halbuki növbəti hərbi toqquşma olsa belə, bu, Azərbaycan ərazisində deyil, Ermənistan ərazisində olacaq. Azərbaycan Ordusu sərhəddə strateji yüksəkliklərə hakimdir, vəziyyət gərginləşərsə, həmin məntəqələrdən Ermənistanın hərbi hissələrinə zərbələr endiriləcək. Böyük Britaniyanın ardınca, digər Qərb ölkələrinin xarici işlər nazirliklərinin də oxşar xəbərdarlığı yayımlana bilər”.



**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov isə bildirdi ki, adətən dövlətlərin müxtəlif coğrafiyalara, müxtəlif ərazilərə səfər etməkdən çəkinmə haqqında xəbərdarlıqlarından sonra hərbi əməliyyatlar, eskalasiyalar, münaqişələr başlayır:** “Bu xüsusda Böyük Britaniyanın Azərbaycana yönəlik, bizim coğrafiyamıza aid ərazilərə səfər etməmək haqqında çağırışı kifayət qədər ciddi maraq doğurur. Çünki regionda belə hərbi vəziyyət, münaqişə ehtimalı yoxdur. Bu barədə Azərbaycan tərəfi də, Ermənistan tərəfi də dəfələrlə bəyan edib. Eyni zamanda məlumdur ki, Ermənistan sürətlə silahlanır, havadarları regionda münaqişə axtarışındadır, revanşizm dalğası baş qaldırır. Eyni zamanda Cənubi Qafqazda sülhü, təhlükəsizliyi və sabitliyi pozmaq istəyən qüvvələr hər zaman iş başındadırlar. Burada xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycanın tələbləri Ermənistan tərəfindən qəbul edilmir. Digər məsələlər də var ki, onlar da sülhə təhdid yaradır. Qondarma qurumun hələ də Ermənistanda nümayəndəliyinin Ermənistanda fəaliyyət göstərməsi, Ermənistan parlamenti ilə qondarma qurum arasında dostluq qrupunun hələ də qalması, bununla yanaşı Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyanın rəhbərlik etdiyi "Qarabağ ermənilərinin hüquqları" haqqında komissiyanın vaxtaşırı üzə çıxması və bu kimi məsələlər əlbəttə ki, Azərbaycanın qəzəbinə tuş gəlir. Lakin maraqlıdır ki, işğaldan azad olunan ərazilər haqqında söylənilən fikirlər Zəngəzur dəhlizinin əhatə edəcəyi bölgələr haqqında söylənilmir. Bu da koridor uğrunda hansısa əməliyyatların baş vermə ehtimallarına bir işarədir. Hesab etmirəm ki, Azərbaycanın bu cür hərbi planları var. Hərbi ritorika da mövcud deyil. Digər tərəfdən, hərbi sahədə hərəkətlənmə də yoxdur. Ancaq ehtimal edirəm ki, əgər Ermənistanın hərbi-siyasi təxribatları və sistematik şəkildə bizim mövqelərimizin atəşə tutulması artarsa, Azərbaycan özünü müdafiə hüququnu əlində saxlayır və məhz təhlükəsizliyimizin təmin olunması, təxribatların qarşısının alınması yönündə müxtəlif tədbirlər görülə bilər. Bu da beynəlxalq hüquqla Azərbaycana verilən imkandır. Burada xüsusilə vurğulamaq istəyirəm ki, region haqqında səhv narmativlər formalaşdırmaq, regionda təhlükəsizlik meyllərinin artırılmasına dair işarə etmək də tamamilə qəbulolunmazdır. Cənubi Qafqazı da qaynar qazana çevirmək həvəsindən irəli gələn çağırışlara təmkinli yanaşmağımızla yanaşı, həm də öz təhlükəsizlik tədbirlərimizi bir qədər də gücləndirmək zərurəti var".

**Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Xankəndidə ADA Siyasi Forumu

## Qarabağ Universitetində keçirilən tədbirdə 44 ölkədən 80-dən çox beynəlxalq ekspert, beyin mərkəzlərinin nümayəndələri iştirak edirlər

**Xankəndidə “Yeni dünya nizamına doğru” mövzusuna həsr olunmuş VII ADA Siyasi Forumu öz işinə başlayıb.**

“Report” xəbər verir ki, ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə Qarabağ Universitetində keçirilən tədbirdə 44 ölkədən 80-dən çox beynəlxalq ekspert, beyin mərkəzlərinin nümayəndələri iştirak edirlər.

Forum iştirakçıları arasında ADA Universitetinin rektoru Hafiz Paşayev, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov, Qarabağ Universitetinin rektoru Şahin Bayramov, eləcə də Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov da yer alır.



**“ADA Universitetini konfransda təmsil etmək çox qürurvericidir”. APA xəbər verir ki, bunu ADA Universitetinin rektoru Hafiz Paşayev forumdakı açılış nitqində deyib. O qeyd edib ki, bu konfrans mühüm əlaqələrin qurulmasına imkan verəcək:** “Bu gün belə bir mötəbər tədbirin iştirakçıları olan bizlər üçün çox önəmli gündür. Bu forumun Qarabağ Universitetində keçirilməsi mühüm əhəmiyyət daşıyır. Biz bu gün Azərbaycanımızın adına sevinirik, lakin mən həm də rəhbərlik etdiyim universitetin adına da çox sevincliyəm. Bildiyiniz kimi, mən Vaşinqtonda diplomatik xidmətdə çalışmışam. Lakin bir zaman oldu ki, Azərbaycana qayıdıb pedaqoji fəaliyyətlə məşğul olmaq istədim. Bu niyyətimi Prezident İlham Əliyevə deyəndə, o da bunu müsbət qarşıladı. ADA Universitetini bugünkü konfransda təmsil etmək çox qürurvericidir. Bildiyiniz kimi, tədbirdə müxtəlif ölkələrdən olan nümayəndələr iştirak edir. Həmin faktor iştirakçı ölkələr arasında mühüm əlaqələr yaratmaq baxımından da çox önəmlidir”.

“Nəhayət, biz beynəlxalq hüquqa və beynəlxalq sərhədlərə uyğun olaraq buradayıq”.

Bu fikirləri Qarabağ Universitetində keçirilən 7-ci ADA Siyasi Forumunun iştirakçısı, **Ramon Llull Universitetinin Beynəlxalq əlaqələr üzrə professoru Jordi Xucla** deyib. O, ilk dəfə Xankəndi şəhərində olmaqdan məmnunluğunu ifadə edib.

**İspaniyalı professor Avropanın gələcək təhlükəsizlik siyasətinə də toxunub:** “Biz nəzərə almalıyıq ki, gələcək üçün Avropa xalqı təhlükəsizlik, digər sahələrdə və ya siyasi baxımdan öz qərarlarını verməlidir. Çünki ABŞ administrasiyası avropalılara aydın mesaj göndərib. Ona görə də avropalılar öz təhlükəsizliklərinin qayğısına qalmalı və bəzi geosiyasi qərarlar barədə düşünməlidir. Bu siyasi qərar nümunəsində biz Avropa İttifaqının qonşuluq siyasətinin sabitliyinə öz töhfəmizi verməliyik”.

**Xucla əlavə edib ki, bu bölgələrin əsas nöqtələrindən biri Cənubi Qafqazdır:** “Ona görə də mən çox xoşbəxtəm ki, bu torpaqda Cənubi Qafqazın sabitliyinə şahidlik edirəm”.

**Professor Qarabağ münaqişəsinin həllindən də məmnunluğunu dilə gətirib:** “Əvvəla mən çox məmnunam ki, bu münaqişə beynəlxalq hüquq normaları əsasında və beynəlxalq sərhədlərə tam hörmətlə həll olunur. İkincisi, hesab edirəm ki, bu münaqişənin həlli bizə göstərdi ki, ikitərəfli saziş bəzi çoxtərəfli forumlardan daha çox işləyir.

Mən həyatımın 11 ilini beynəlxalq təşkilatda, yeni Avropa Şurasında keçirmişəm. Biz bunu qeyd etməliyik ki, bəzən beynəlxalq təşkilatlar nəticə vermək üçün o qədər də səmərəli və məhsuldar olmurlar".

**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 58 (8668) 9 aprel 2025



# Villalar birləşdirilsin

Zamin HACI
zaminhaci@gmail.com

**Bugünlərdə bir çox elmi institutlar ixtisara salındı, birləşdirildi və yaxud universitetlərin tabeliyinə verildi. Öz-özlüyündə yaxşı qərardır. Hətta müəyyən dərəcədə gecikmişdir.**

Məsələn, Riyaziyyat və Mexanika İnstitutu (müdiri Misir Mərdanov) ilə İdarəetmə Sistemləri İnstitutu birləşdiriləcək. İkincinin adını ilk dəfə eşitdik, birinci isə Misir müəllim müdiri olmasa, heç yada düşməzdi. Əks halda, ölkədə riyaziyyat elmi üzrə hansısa inkişaf görən olubmu?

Orta məktəblərdə də riyaziyyatın tədrisi bərbad gündədir, 2009-cu ildə Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı (PISA) azərbaycanlı uşaqların riyaziyyat biliyini yoxlamışdı, dünya üzrə 65 dövlət arasında 64-cü yeri tutmuşduq. Hətta o vaxt Təhsil Nazirliyimiz acıq eləyib PISA-dan çıxmışdı. Guya bizim şagirdləri düzgün qiymətləndirməyiblər. 2018-ci ildə "inəyin quyruğundan tutub" PISA yoxlamasına qayıtdıq, ancaq vəziyyətin daha da pisləşdiyi ortaya çıxdı. Şagirdlərin Azərbaycan dilində oxuyub anlamaq üzrə orta göstəricisi 2018-ci ildəki 389 baldan 365 bala, riyaziyyat üzrə 420 baldan 397 bala, təbiət elmləri sahəsində isə 398 baldan 380 bala enmişdi.

Təhsildə bu cür geriləməyimizin günahkarı kimdir? Yəqin İlon Mask olar. Ya da Zelenski. Elçibəydən də şübhələnirəm, açığı.

Qayıdaq elmi inkişafın institutlaşmasına. Yeni yaradılacaq qurumlar bunlardır: "Geologiya İnstitutu - Geologiya və Geofizika İnstitutu ilə Neft və Qaz İnstitutunun bazasında; Coğrafiya İnstitutu - Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu və Torpaqşünaslıq və Aqrokimya İnstitutunun birləşdirilməsi ilə; Fizika İnstitutu - Fizika İnstitutu və Radiasiya Problemləri İnstitutunun əsasında; Kimya İnstitutu - Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu ilə Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun birləşdirilməsi ilə; Botanika İnstitutu - Botanika və Dendrologiya institutlarının birləşdirilməsi ilə; Canlı Sistemlərin Tədqiqi İnstitutu - Zoologiya və Fiziologiya institutlarının birləşdirilməsi ilə; Molekulyar Biologiya İnstitutu - Molekulyar Biologiya və Biotexnologiyalar, Mikrobiologiya və Biofizika institutlarının əsasında yaradılacaq" və sairə.

Mən heç bir elmi, sosial, iqtisadi, ictimai mənası olmayan bu söz yığınını niyə təkrar elədim? Mənası olmadığı üçün! Hələ Gəncədə də bir sürü institut-zad birləşdirildi, Allahınıza şükür edin, onları yazsam qəzetdə yer qalmaz, sayt dolub-daşardı.

Əgər bu ölkədə doğrudan torpaqşünaslıq, aqrokimya elmi varsa, niyə torpaqlarımız ildən-ilə şoranlaşır? Zoologiya varsa, niyə heyvandarlığımız zibil günündədir? Hələ mən əhliləşmiş, ev heyvanlarının durumunu yazıram, vəhşi heyvanlar lap yazıq gündədir. Onları xaricdən gələn bir sürü əbalı-əmmaməli axmaqların tüfəngi qabağına buraxmışıq, vuran vuranadır.

Camaat biologiyanı öyrənəndə, biz mikrobiologiyada fısqırıq yapmışıq. Bəs necə, tükü tükdən seçirik axı. Ona görə pandemiya başlayanda alimlərimiz peyvənd qabı düzəltmişdilər. Əsas qabdır. Hərçənd qab işində də geriyik - aftafa-ləyən hələ də İrandan-Turandan gətirilir.

Fizika və radiasiya üzrə ayrı-ayrı elmi institutlarımızın olması isə lap anekdotdur. Sanki Mariya və Pyer Küri Kür çayının qırağında balıq tuturmuş (söz oyunu üçün üzr istəyirəm). Radiasiya ey... A kişi, siz niyə başınıza düşən almanı-zadı, bəd ayaqda mələyin uçma sürətini, Ramazanda Ayın görünmə vaxtını öyrənmirsiniz? Radiasiya haramıza yaraşır? Sanarsan Azərbaycanda uran yataqları var imiş, Akif müəllim poloniumla şirinçay edirmiş, nə bilim, Hacıqabul çölündə AES-in tüstüsü göyə bülənd olurmuş.

Keçən yay-payız bir əcaib tırtıl sürüsü Bakıya daraşmışdı. Harada tut ağacı görsələr yarpaqlarının axırına çıxırdılar. Buna tədbir görən alim oldumu? Ya kimsə çıxış elədimi? Ancaq əsas odur botanika üzrə institutumuz var.

Jurnalistlər az qalırlar tək tırtıllı texnikalar yox, tırtıl böcəkləri mövzusuna şərh üçün də Üzeyir Cəfərovu çağırsınlar, çünki bizim alimlər qorxaqdır, danışmaq istəmir. (Bəlkə bu yolla ağıllı görünmək istəyirlər).

Məncə, elmin inkişafı üçün institut direktorlarının villalarını birləşdirmək daha səmərəli olardı.

# Spikerlər "Qafqaz masası" yaradır

## İrəvanın kənarda qaldığı bu format regional təhlükəsizliyin gücləndirilməsi istiqamətində daha bir uğurlu addım olacaq



**Son illərdə Cənubi Qafqaz regionunda yaranmış yeni geosiyasi reallıqlar fonunda Azərbaycanın Türkiyə və Gürcüstanla həm ikitərəfli, həm də üçtərəfli təmasları güclənib. Son 30 ildə Azərbaycanın Türkiyə və Gürcüstanla əlaqələri yüksələn xətlə inkişaf edərək, bir sıra transmilli layihələrin reallaşmasına zəmin yaradıb.**

Üç ölkənin dövlət qurumları, o cümlədən müdafiə və xarici işlər nazirlikləri arasında qurulan səmərəli münasibətlər regional və beynəlxalq əməkdaşlıq, habelə qlobal təhlükəsizlik baxımından mühüm nəticələr verib. Ölkələrimiz arasında yüksək səviyyəli təmasların intensivləşməsi, qarşılıqlı səfərlər Azərbaycan, Türkiyə və Gürcüstanın Cənubi Qafqaz regionunda reallaşdırılan, transmilli əhəmiyyətə malik layihələrin əsas təşəbbüskarları və icraçıları olması ilə şərtlənir.

Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli əməkdaşlığı region üçün çox faydalıdır. Bu format regional təhlükəsizliyin gücləndirilməsi və sabitliyin bərqərar olması istiqamətində uğurla fəaliyyət göstərir. Xarici işlər nazirləri ilə yanaşı, Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli danışıqlar formatı da mövcuddur ki, burada daha çox hərbi sənaye və müdafiə məsələləri gündəliyə daxil olur. Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatı həm də hər üç ölkənin silahlı qüvvələri arasında səmərəli əməkdaşlıq əlaqələrinin inkişafına xidmət edir. Bölgədəki vəziyyətin doğurduğu aktual çağırışlar strateji tərəfdaşlar olan Azərbaycan, Türkiyə və Gürcüstan arasında müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığın dərinləşdirilməsini zərurətə çevirir. Sabitliyə, sülhə və iqtisadi inteqrasiyaya xidmət edən qlobal layihələri birgə reallaşdıran hər üç ölkə postmüharibə dövrünün sülhyaratma proseslərinə fəal töhfələr verir.

Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşun görüşündə bu əməkdaşlığın daha da möhkəmlənməsi istiqamətində daha bir addım atılıb. Gürcüstan parlamentindən verilən məlumata görə, tərəflər yaxın vaxtlarda parlament sədrləri səviyyəsində Gürcüstan-Türkiyə-Azərbaycan üçtərəfli əməkdaşlıq formatının yaradılması ilə bağlı razılığa gəliblər. Kurtulmuş Türkiyənin sözügedən məsələ ilə bağlı ev sahibliyinə hazır olduğunu da bildirib. Spikerlərin "Qafqaz masası" yaratması fonunda İrəvan yenidən qapı arxasında qalır. Cənubi Qafqazın yeganə ölkəsi Ermənistandır ki, özünü regional layihələrdən təcrid etməkdədir. Halbuki onun da bu formatlarda, platformalarda iştirak şansı var. Sadəcə, Azərbaycan və Türkiyə ilə münasibətlərin tənzimlənməsində gözlənilən addımları atmalıdır.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Arif İsmayılbəyli**nin "Yeni Müsavat"a bildirdiyinə görə, spikerlər səviyyəsində qurulan platforma əməkdaşlığın spektrinin genişləndirilməsinə hesablanıb. Parlament partiyasının funksionerі hesab edir ki, bu üçbucağın inkişaf etdirilməsi regionda sabitliyə xidmət edir. Üç ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyən VHP mənsubunun fikrincə, parlament sədrlərinin bir araya gəlməsi ilə əlaqələr daha da möhkəmlənəcək: "Ermənistan bu fürsəti əldən verməkdədir. Düzdür, Paşinyan Türkiyə və Azərbaycanla normallaşma prosesinin həyati əhəmiyyətini erməni xalqına izah etməyə çalışır, bununla belə, ölkəsinin blokadası davam edir. Çünki Türkiyə və Azərbaycana ərazi iddiaları qalır, erməni xalqının türkə nifrəti dəyişməyib, İrəvanda hələ də revanşist fikirlər səslənir, Qarabağdan əl çəkmək istəmədiklərini nümayiş etdirirlər. Bu da Ermənistana zərər vurur və onu regional əməkdaşlıq layihələrindən təcrid edir. Ona görə də Paşinyan siyasətinə yenidən baxmalı, addımlarını sürətləndirməlidir. Çünki regionda hər anın öz hökmü var və hazırkı reallıqlar dəyişə bilər".

**A.İsmayılbəyli Azərbaycan Prezidentinin "Qafqaz evi" ideyasını irəli sürdüyünü xatırladaraq, regionda dayanıqlı sülh üçün ən unikal variantın bu platforma olduğunu düşünür:** "Bizə kənar güclərin müdaxiləsi, yaxud vasitəçiliyi lazım deyil. Üç Qafqaz ölkəsi bölgədə sabitliyi təmin etmək üçün bu ideyanı gerçəkləşdirə bilər. Türkiyənin də bunda maraqlı olduğunu görürük. Eyni zamanda "altılıq" platforması təklif olunub. Hələlik Gürcüstanın Rusiya ilə problemləri reallaşmasına imkan vermir. Ermənistan və İranın da mövqeyi tam aydın deyil. Ancaq "Qafqaz masası" qurulur və Ermənistanın da burada iştirak perspektivi görünür. Sadəcə, İrəvan Avropa İttifaqının, Fransanın oyununa getməməlidir".

**Türkiyədə fəaliyyət göstərən siyasi təhlilçi Ramiyə Məmmədova Ermənistanın bu gedişlə hələ çox qapılar arxasında qalacağını proqnozlaşdırır:** "Buna səbəb özünütəcrid siyasətidir. Azərbaycan isə çoxşaxəli xarici siyasət yürüdür. Yəni istər Qərblə enerji sahəsində əməkdaşlıq, istər Rusiya və Çinlə olan əlaqələr, istərsə də regional layihələrin həyata keçirilməsi olsun. Bu mənada Türkiyə-Gürcüstan-Azərbaycan tandemi inkişafda olan formatlardan biridir. Burada siyasi-iqtisadi, təhlükəsizlik sahələrində əməkdaşlığın genişləndirilməsindən söhbət gedir. Özəlliklə Xəzər və Qara dəniz hövzələrini əhatə edən geniş coğrafiyada Azərbaycan, Türkiyə və Gürcüstan iqtisadi üçbucağı formalaşıb. Ermənistan isə bu fürsəti əldən verib. İndiyədək üç ölkənin birgə təşəbbüslərlə reallaşdırdıqları enerji, nəqliyyat layihələri regional və qlobal əməkdaşlıq baxımından xüsusi önəm daşıyır. Bu sırada 1999-cu ildə istifadəyə verilən Bakı-Supsa neft kəməri bir ilkdir".

**Ekspertin sözlərinə görə, Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum kəmərləri bu əməkdaşlığı möhkəmləndirən təməl xətlərdir:** "Ermənistan da bundan yararlana bilərdi. Ancaq onun işğalçılıq siyasəti, bu gün isə həm sülh əleyhinə addımları, regionda təxribatçı hərəkətləri, Zəngəzur dəhlizinə qarşı çıxması, gah Fransanın, gah İranın əlində oyuncağa çevrilməsi onu bu əməkdaşlıq layihələrindən kənarda qoyub. Təbii ki, Paşinyan bu reallığı görür və onu 180 dərəcə dəyişmək haqqında fikirləşir".

❑ **Emil SALAMOĞLU,
"Yeni Müsavat"**

# Pekinin "Zəngəzur dərdi" - Bakıda deyib, İrəvanda təkzib edirlər

## Çin rəsmisinin Zəngəzur dəhlizi açıqlamasını bu ölkənin İrəvandakı diplomatı niyə təkzib edir? - ekspertlərin izahı

**İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərlə regionda yeni reallıqlar yaradan Azərbaycan hazırda bütün addımlarını postmüharibə dövrünün tələblərinə uyğun atır. Xüsusilə ölkəmizin iqtisadi qüdrəti Qarabağda böyük tikinti-quruculuq işlərinin aparılmasına imkan verir. Eyni zamanda bu gün dövlətimiz əsas diqqəti məhz Qarabağın dirçəlişi ilə bərabər, Zəngəzur dəhlizinin açılması istiqamətinə yönəldib. Zəngəzur dəhlizi yalnız Azərbaycanın iqtisadi mənfəətinə hesablanmayıb. Bu dəhlizdən qonşu ölkələr, o cümlədən Asiyanın böyük dövlətləri də yararlanmaq istəyirlər.**

Xüsusilə Çin kimi fövqəlgüc Zəngəzur dəhlizinin açılmasında maraqlı olduğunu dəfələrlə vurğulayıb. Ona görə ki, bu dəhlizin açılması Çinin mövcud yükdaşımalarını zaman və məsafəni azaltmaqla səmərəli nəticələrə gətirib çıxaracaq. Azərbaycanın mühüm ticarət və strateji yollar qovşağında yerləşməsi Çinin ölkəmizə marağını artırır. Hazırda Çin malları Bakı-Tiflis-Qars dəmir yolu vasitəsilə Avropaya çatdırılır. Gələcəkdə Zəngəzur dəhlizinin açılması Çinin də maraqlarına uyğun olacaq. Başqa sözlə, Pekin Zəngəzur dəhlizinin açılmasında maraqlıdır.

Zəngəzur dəhlizinin işə salınması böyük strateji əhəmiyyətə malikdir. Bunu Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lyu Tszyançao ötən həftə Bakıda keçirilən "Azərbaycan-Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi" mövzusunda konfransda bildirib.

"Azərbaycan bizim "Bir kəmər, bir yol" təşəbbüsümüzü ilk dəstəkləyən və onun həyata keçirilməsində fəal iştirak edən tərəfdir. Zəngəzur dəhlizinin tikintisinə gəlincə, bu, xüsusilə hazırkı beynəlxalq və regional geosiyasi vəziyyətdə Avropa ilə Asiya arasında əlaqələri daha da gücləndirəcək mühüm layihədir. Azərbaycan bu dəhlizin yaradılması təşəbbüsü ilə çıxış edib və onun həyata keçirilməsi böyük strateji əhəmiyyətə malikdir", - deyə Lyu Tszyançao bildirib. Lyu Tszyançao həmçinin qeyd edib ki, Çin şirkətləri layihədə iştirak edəcək, lakin daha çox tərəfdaş cəlb etmək üçün Çinin biznes nümayəndələri arasında bu dəhlizin təmin etdiyi imkanlar barədə məlumatlılığın artırılması lazımdır.

Ancaq qəribədir ki, Çinin Ermənistandakı müvəqqəti işlər vəkili Çen Minq erməni mediasına açıqlamasında Lyu Tszyançaonun Bakıda Zəngəzur dəhlizi ifadəsini işlətməsini təkzib edib. Səfir əmin edib ki, konfrans zamanı Çin tərəfi bu məsələyə ümumiyyətlə toxunmayıb və mediada Çin tərəfinə aid edilən oxşar bəyanatlar varsa, onlar yalan və yanlış ola bilər. Səfir aydınlaşdırıb ki, Çin nümayəndə heyəti bu yaxınlarda Bakıda olub və "Bir kəmər, bir yol" təşəbbüsünə həsr olunmuş konfransda iştirak edib. Çin nümayəndə heyəti "Bir kəmər, bir yol" təşəbbüsünün Cənubi Qafqazda yayılmasına necə töhfə verə biləcəklərini müzakirə edib.

Ermənistandakı səfirin bu fikirləri tamamilə inkar etməsinin anlamı nədir? Rəsmi Pekin özü ikili oynayır, yoxsa?

Bu mövzunu "Yeni Müsavat"a şərh edən **professor Qabil Hüseynli**nin sözlərinə görə, əvvəla Çin və Azərbaycan strateji tərəfdaşlıq əlaqələrinə dair sənəd imzalayıb. Onun fikrincə, bu saziş ikitərəfli əlaqələrin inkişafı üçün həyati əhəmiyyət kəsb etməklə bərabər, Çinin Cənubi Qafqazda təsirini gücləndirir: "Çin rəsmisi qeyri-dəqiq ifadə işlətməz və belə ehtimal etmək olar ki, İrəvanda olan Pekin nümayəndəsi manevr etməyə çalışıb. O da nəzərə alınmalıdır ki, Ermənistanda olan səfirlər bəzən özlərini rəsmi İrəvanın nümayəndəsi kimi aparırlar. Məsələn, İranın İrəvandakı səfiri Sübhani, Amerikanın daha əvvəl orada səfiri olmuş Lin Treysi bəzən öz ölkələrini təmsil etdiklərini unudurdular. Çinin Ermənistandakı səfirinin də eyni qəbildən olduğunu görmək mümkündür. Ancaq bütün hallarda, Bakı-Pekin münasibətləri yüksək səviyyədədir".

**Q.Hüseynli Çinin Zəngəzur dəhlizinin açılmasında marağı olan ən birinci dövlət sayır:** "Bu halda, Avropaya daşınan yüklərin çatma müddəti qısalacaq. Çin dəhlizin açılmasına dəstək verir. Bu logistika Çin üçün böyük əhəmiyyət kəsb edir. Sadəcə, erməni mediası səfirin fikrini öyrənərkən Ermənistanın Zəngəzur məsələsində mövqeyinə, konyukturasına uyğunlaşdırmağa çalışıb. Ermənistanın destruktiv mövqeyi bu dəhlizin açılması prosesinə əngəl yaratsa da, Avropada Azərbaycanın mövqeyini dəstəkləyən ölkələr var. Ona görə də həm Çinin, həm Britaniyanın marağında olan bu qlobal layihənin həyata keçməsi gec-tez mümkün olacaq, Ermənistan prosesi istədiyi qədər yubada bilməyəcək. Sadəcə, dəhlizə kontrolun kimdə olacağı ilə bağlı mübahisə işə mane olur".

**Milli Cəbhə Partiyasının sədr müavini Ehtiram Mehdiyevin fikrincə, Çin rəsmisinin Azərbaycanda olarkən dediklərinə daha çox diqqət yetirmək lazımdır, nəinki Ermənistandakı diplomatın. Onun sözlərinə görə, Çin Cənubi Qafqazda maraqlı olan dövlətdir və bütün tərəflərlə işləməyə üstünlük verir:** "Amma Azərbaycan bölgədə Çin üçün xüsusi rola sahibdir. Bu əlaqələr getdikcə inkişaf etməkdədir. Hazırda Azərbaycan Cənubi Qafqaz regionunda söz sahibi olan lider dövlət, Çin isə Asiyanın və dünyanın iqtisadi güc mərkəzlərindən biridir. Siyasi-iqtisadi amillər, nəqliyyat-tranzit qovşaqları, geosiyasi amillər və digər mühüm faktorlar hər iki ölkəni bir sıra ortaq baxış və strateji maraqlar bucağında tamamlayır. Çin Avropa ilə ixrac-idxal əməliyyatlarını daha da genişləndirmək üçün qısa, təhlükəsiz və ucuz başa gələn yol axtarışındadır. Azərbaycanın həyata keçirmək istədiyi Zəngəzur dəhlizinin də Çin tərəfindən dəstəklənməsi təsadüfi deyil. Gələcəkdə yüklər qatarla Çindən çıxaraq Qırğızıstan-Özbəkistan-Qazaxıs-tan-Azərbaycan-Türkiyə üzərindən keçərək Avropaya və əks istiqamətə daşınacaq".

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən Qulamhüseyn Əlibəylinin fikrincə isə bir dövləti təmsil edən müxtəlif rəsmilərin müxtəlif bəyanatlarla çıxış etməsi diplomatiyada az-çox istifadə edilən üsullardan biridir:** "Bunun müxtəlif səbəbləri ola bilər. Hesab edirəm ki, bu, konkret halda Çinin bütövlükdə bir dövlət kimi Zəngəzur dəhlizinə münasibətinin tam formalaşmaması deməkdir. Bakıdakı bəyanatda da nümayəndə heyətinin rəhbəri Zəngəzur dəhlizinin Çin tərəfindən müdafiə olunduğunu prinsipcə deyib. O cümlədən, bununla bağlı bir sıra ümumi fikirlər səsləndirib. Bu isə o deməkdir ki, Çin birmənalı mövqe ortaya qoymağa tələsmir. Yəni istəmirlər ki, Ermənistanı incik salsınlar. Ancaq reallıqda Pekin dəhlizin tərəfdarıdır. Ona görə ki, Zəngəzur dəhlizi daşımalar zamanı məsafəni qısaldacaq. Ermənistandakı səfirin bu fikirləri tamamilə inkar etməsi sırf Ermənistanın mövqelərinə uyğun mövqedən çıxış etməsi deməkdir. Diplomatlar bəzən belə bir üsuldan istifadə etmiş olurlar.

Əslində Çin də mahiyyət etibarı ilə Avropaya ən qısa variantlardan biri kimi Zəngəzur dəhlizini açıq dəstəkləməyə borcludur. Sadəcə, diplomatik mövqedən çıxış etdikləri üçün ehtiyatlı mövqe tuturlar və bu səbəbdən müxtəlif fikirlər meydana gəlir".

Qeyd edək ki, 2024-cü ildə Azərbaycanla Çin arasında imzalanmış "Çin-Avropa Dəmiryolu Ekspresi üçün Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutlarının inkişafı haqqında" və Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Çinin Milli İnkişaf və İslahat Komissiyası arasında "Bir kəmər, bir yol" təşəbbüsünün birgə həyata keçirilməsi üzrə əməkdaşlıq planının formalaşdırılmasının sürətləndirilməsi haqqında" anlaşma memorandumları imzalanıb.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**






## Çin ruslarla birgə müharibəyə hazırlaşır

**"ABŞ Ukraynada atəşkəslə bağlı Rusiya ilə danışıqlarda təkid etməyə davam edir. Ancaq başa düşmək lazımdır ki, Trampın Rusiya ilə qarşılıqlı fəaliyyətlə bağlı bütün kampaniyası Ukrayna və ya Rusiya ilə deyil, yalnız Çinlə bağlıdır". Ayna.az xəbər verir ki, bu sözləri Azad Honq Konq Mərkəzinin baş koordinatoru Artur Xaritonov analitik məqaləsində qeyd edib.**

Ekspertin sözlərinə görə, Ağ Ev administrasiyasının nöqteyi-nəzərindən Çin Ukrayna müharibəsindən istifadə edərək Rusiyanı özünə tabe edib: "Bu ölkə müharibənin əsas sponsorlarından biridir. Xüsusən də rus işğalçılarının silahlarında olan mikroelektronikanın 93 faizi Çin mənşəlidir. Si Cinpin də Rusiya diktatoru Vladimir Putin kimi son dərəcə təhlükəli adamdır. ABŞ və Rusiya arasında qarşılıqlı əlaqə prosesini dayandırmaq, ABŞ-ı Co Baydenin dövründə olduğu kimi Rusiya ilə deyil, Çinlə danışıqlar aparmağa məcbur etmək istəyir. Bundan əlavə, o, ABŞ-ın indiki hərəkətlərindən istifadə edərək özünü anti-Tramp, Çini isə anti-Amerika kimi göstərmək istəyir. Buna görə də Çin genişlənmə yolunda özünü bütün dünyanın xilaskarı kimi təqdim edəcək, sivilizasiya dəstəyi və yardım göstərməyə hazır olduğunu ifadə edəcək. Ancaq xatırlamaq yerinə düşər ki, çinlilər heç vaxt demokratiya, real humanitar dəstək və hər hansı inkişaf üçün vəsait ayırmırlar. Xatırlamaq yerinə düşər ki, Si Cinpin dünyanın qlobal şəkildə yenidən bölüşdürülməsini, dünya düzəninin demokratikdən Çinə doğru dəyişməsini istəyir. Çin ruslarla birlikdə müharibəyə, ABŞ isə müdafiəyə hazırlaşır. Və söhbət "soyuq müharibə"dən yox, real hərbi əməliyyatlardan gedir".

❑ **"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 58 (8668) 9 aprel 2025



# Eldar Mahmudovun adamları Avropada siyasi sığınacaq alıb

## "Akula Akif" ləqəbi ilə tanınan Akif Mustafayevin adı artıq İnterpolun məlumat bazasından çıxarılıb; MTN-in bir sıra sabiq əməkdaşı Avropa ölkələrindən siyasi sığınacaq alıb və orada bizneslə məşğuldur

**Keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun iş adamlarından pul qoparmaq üçün əməliyyatlarda istifadə etdiyi "Akula Akif" ləqəbi ilə daha çox tanınan Akif Mustafayevin adı artıq İnterpolun məlumat bazasında yoxdur. Bu barədə Haqqın.az yazıb. Bildirilir ki, Akif Mustafayevin beynəlxalq axtarışdan çıxarılmasının dəqiq tarixi məlum deyil: lakin görünən odur ki, İnterpol təqdim olunan materialların onun axtarışı üçün kifayət qədər əsas olmadığı qənaətinə gəlib. Mustafayevin hazırda harada olduğu da məlum deyil. Qeyd edək ki, Akif Mustafayev MTN-in ləğvi ilə nəticələnən xüsusi əməliyyat başlayandan dərhal sonra Azərbaycanı tərk edib. Bəzi məlumatlara görə, ona qarşıdakı əməliyyatla bağlı əvvəlcədən məlumat verilib. Onun Avropaya Belarus vasitəsilə keçdiyi məlumdur. "Akula Akif"ə qarşı rüşvət almaq maddəsi ilə cinayət işi açılıb və o, beynəlxalq axtarışa verilib. 2016-cı ilin oktyabrında Mustafayev İnterpolun orderi əsasında İspaniyada saxlanılıb, lakin bir neçə gün sonra azadlığa buraxılıb. Akif Mustafayev Avropada gizlənən "Mahmudov dəstəsi"nin yeganə üzvü deyil. Məlumatlara görə, MTN-in bir sıra sabiq əməkdaşları Avropa ölkələrindən siyasi sığınacaq alıb və orada bizneslə məşğuldur.**

Maraqlıdır ki, Eldar Mahmudovun ailə üzvləri də uzun illərdir ki, Azərbaycanda yaşamır. Eldar Mahmudovun övladları - oğlu Anar və qızı Londonda məskunlaşıblar. Orada biznesləri də var. Bundan başqa, Eldar Mahmudovun qudası Zamirə Hacıyeva da uzun illərdir ki, Londonda məskunlaşıb. Zamira Hacıyeva hazırda həbsdə olan Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevin həyat yoldaşıdır. Onlara qarşı ittihamlar, məhkəmə çəkişmələri olsa da, xaricdə dinc həyatlarını yaşayırlar.

Bu günə qədər adı Eldar Mahmudovla əlaqəli çəkilən şəxslərdən Sahib Ağayev və Emin Sadiq xaricdə həbs olunaraq ölkəyə gətiriliblər.

Sahib Ağayev Qazaxıstanda saxlanılaraq Bakıya ekstradisiya olunub. O, çirkli pulların yuyulmasında və iri məbləğin mənimsənilməsində ittiham olunub. Sahib Ağayev Bakıda keçirilmiş Avropa Oyunları ərəfəsində sonradan ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi ilə Avropa Oyunlarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə xüsusi avadanlığın gətirilməsi və quraşdırılması üzrə müqavilə bağlayıb. İstintaq Sahib Ağayevi 30 milyon manatın mənimsənilməsində ittiham edir. Bir müddət sonra həmin pullar Sahib Ağayevin xarici şirkətinin hesabına yatırılıb. Sahib Ağayev xüsusilə böyük məbləğdə vergidən yayınmada da ittiham edilirdi. Adı Eldar Mahmudovun adamı kimi çəkilən Emin Sadiq də xaricdə tutulub ölkəyə gətirilmişdi.




Bəs İnterpol adətən hansı hallarda axtarışda olanların adını siyahıdan çıxarır?

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, İnterpol (Beynəlxalq Cinayət Polisi Təşkilatı) axtarışda olan şəxsi (yəni "Red Notice" - Qırmızı Bildiriş verilmiş şəxsi) müəyyən hallarda siyahıdan çıxara bilər**: "Barəsində konkret cinayət işi üzrə axtarış elan edilmiş şəxs ölkə ərazisindən çıxıbsa, qaçıbsa, onu tapa bilmirsə, şəxsin xarici ölkəyə qaçdığına dair gümanlar varsa, bu zaman beynəlxalq axtarışa müraciət olunur. Bu zaman şəxsin cinayət törətdiyinə dair əsaslar olmalıdır. İstintaq orqanlarının beynəlxalq axtarışla bağlı qanundan kənara çıxması düzgün hal hesab olunmur. İnterpol xətti ilə axtarışa verilən şəxs hansısa ölkənin hüquq-mühafizə orqanları tərəfindən saxlanılırsa, bu zaman digər tərəfin onu tələb etmək imkanları olur. Azərbaycan İnterpolun üzvüdür, beynəlxalq axtarışa verdiyi şəxs bu və ya digər ölkədə həbs olunarsa, həmin şəxsin Azərbaycana təhvil verilməsi həmin təşkilatın borcudur".

**Natiq Ələsgərov deyib ki, İnterpolun idarəçiliyi, maliyyələşməsi ona üzv olan ölkələr tərəfindən təmin olunur. İnterpolun mandatı axtarışa verilən şəxsi qeydiyyata götürmək və dünyanın hansısa bir bölgəsində saxlayıb vətəndaşı olduğu ölkəyə təhvil verməkdən ibarətdir:** "İnterpolun üzv ölkələr tərəfindən edilən hər hansı bir müraciətə əhəmiyyət verməmək kimi bir səlahiyyəti yoxdur. Amma üzv dövlətlər üçün də müəyyən qaydalar da var. Məsələn, İtaliya İnterpolu beynəlxalq axtarışda olan Gürcüstan və ya Azərbaycan vətəndaşını həbs edirsə, həmin şəxs barəsində 3-cü ölkə axtarış veribsə, bu halda ilk növbədə hökumətlərə bu barədə məlumat verməli və saxlanılan şəxsin təhvil verilməsi ilə bağlı razılıq almalıdır. Ola bilər ki, Azərbaycan tərəfdən beynəlxalq axtarışa verilən və digər ölkədə tutulan adam həmin ərazidə də başqa bir cinayət törədib. Belə hallarda şəxs tutulduğu ölkədə törətdiyi cinayətə görə, öz cəzasını çəkməli, sonradan vətəndaşı olduğu ölkəyə verilməlidir. İnterpolun şəxsi öz ölkəsinə verməməsi halları da olur. Belə hallar əsasən siyasi məsələlərlə əlaqəli olur".

**Natiq Ələsgərov deyib ki, şəxs barəsində İnterpolun axtarışı dayandırması bir neçə halla əlaqəli ola bilər:** "Şəxsin axtarışının hüquqi əsaslarının aradan qalxması şəxs barəsində olan cinayət təqibi dayandırılıbsa (məsələn, bəraət alıbsa və ya iş üzrə istintaq yekunlaşıbsa), İnterpol həmin şəxsi siyahıdan çıxarır. Və ya şəxs artıq saxlanılıbsa və ya həmin ölkəyə təhvil verilibsə, artıq beynəlxalq axtarışa ehtiyac qalmır. Əgər şəxs və ya vəkili İnterpol-a müraciət edərək bildirişin siyasi, dini, etnik və ya hər hansı ayrı-seçkilik əsasında verildiyini sübut edə bilsə, İnterpol bildirişi ləğv edə bilər.

İnterpolun nəzdində fəaliyyət göstərən CCF (Commission for the Control of INTERPOL's Files) bu müraciətləri araşdırır və qərar verir. Əgər şəxsin axtarışı onun insan hüquqlarının pozulmasına səbəb ola bilərsə (məsələn, qeyri-ədalətli məhkəmə, işgəncə riski və s.), İnterpol bu axtarışı silə bilər. Məsələn, İnterpolun konstitusiyasına görə təşkilat siyasi, hərbi, dini və ya irqi xarakterli məsələlərə müdaxilə edə bilməz. Əgər axtarış bu prinsiplərə zidd olsa, bildiriş ləğv olunur".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**




# Bakıda xarici dövlət nümayəndəsini öldürmək istəyənə ağır cəza

**Dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd hazırlamaqda təqsirləndirilən Elşən Nəcəfovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Aytən Əliyevanın sədrliyi ilə keçirilən prosesdə hökmə əsasən, Elşən Nəcəfov 12 il azadlıqdan məhrum edilib. O, cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkəcək.

Qeyd edək ki, Elşən Nəcəfov 2023-cü ilin sentyabr ayında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən xüsusi əməliyyat zamanı saxlanılıb.

Elşən Nəcəfova qarşı irəli sürülmüş ittihamda qeyd edilib ki, o, xarici ölkə ərazisində yaşayan digər Azərbaycan Respublikası vətəndaşı ilə əlbir olub xarici dövlət rəsmilərinin Azərbaycana səfəri zamanı onlara və Azərbaycanın dövlət və ictimai xadimlərinə qarşı ictimai tədbirdə imkan əldə edib terror hücumu etməyə hazırlıq hərəkətləri edib. Bu barədə qətiyyətini ifadə etdiyi və əlbir olduğu şəxsə göndərdiyi səs yazıları iş materiallarına əlavə edilib. Sonuncu Elşən Nəcəfova terrorçuluq əməlləri törətməsi planını həyata keçirərkən öldürüldüyü halda "şəhid" hesab ediləcəyini bildirib.

Elşən Nəcəfov DTX əməkdaşları tərəfindən ifşa edilərək saxlanıldığından, iradəsindən asılı olmayaraq qeyd olunan terror əməllərini törədə bilməyib.

# Gömrükdə antikorrupsiya həbsləri

## Təqsirləndirilən şəxslərdən 3-ü barədə həbs-qətimkan tədbiri seçildi

**Qaçaqmalçılıq cinayətinin törədilməsində iştirak etmiş Dövlət Gömrük Komitəsinin Xaçmaz Gömrük İdarəsinin əməkdaşlarının qanunsuz əməlləri barədə həmin qurumda başlanmış cinayət işinin ibtidai istintaqı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində davam etdirilir.**




Baş Prokurorluqdan bildirilib ki, istintaqla Dövlət Gömrük Komitəsinin Xaçmaz Gömrük İdarəsinin Əməliyyat və təhqiqat şöbəsinin əməliyyat müvəkkili Hidayət Məmmədov və həmin şöbəyə təhkim olunmuş "Azərterminalkompleks" Birliyinin inspektoru Bayram Məmmədovun qabaqcadan əlbir olaraq öz qulluq mövqelərindən istifadə etməklə Haysuf Hacıyevin idarə etdiyi dərman vasitələri və digər mallarla yüklü nəqliyyat vasitəsinin Azərbaycan Respublikası ərazisinə gömrük nəzarətindən kənar keçirilməsini təmin etmək müqabilində onlara müraciət etmiş vətəndaş Arzu Abdullayevdən rüşvət almalarına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış ilkin sübutlar əsasında Hidayət Məmmədov Cinayət Məcəlləsinin 32.5, 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qaçaqmalçılığa köməkçilik), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə ağır nəticələrə səbəb olduqda), 311.3.1 və 311.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrar rüşvət alma), Bayram Məmmədov həmin Məcəllənin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə ağır nəticələrə səbəb olduqda) və 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma), Arzu Abdullayev və Haysuf Hacıyev isə həmin Məcəllənin 200-1.2.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən dərman vasitələrinin qanunsuz dövriyyəsi), 200-1.2.3 (külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsi) və 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qaçaqmalçılıq) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb ediliblər.

İş üzrə ibtidai istintaqı aparan müstəntiqin vəsatəti və İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında təqsirləndirilən şəxslər Hidayət Məmmədov, Bayram Məmmədov və Arzu Abdullayev barəsində məhkəmənin qərarı ilə həbs, Haysuf Hacıyev barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilməklə nəticəsi barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 58 (8668) 9 aprel 2025

**Ötən həftə Prezident İlham Əliyev Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi institutların birləşdirilməsi ilə bağlı sərəncam imzalayıb. Sərəncama əsasən, Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən bir sıra elmi institutlar birləşdiriləcək publik hüquqi şəxslər kimi yenidən təşkil olunacaq. Bu dəyişikliklər 2025-ci ilin sonunadək mərhələli şəkildə həyata keçiriləcək.**

# İnstitutlar birləşdirilir - elm qazanacaq, yoxsa büdcə?

## Ekspert deyib ki, sərəncam elmi idarəetmədə yeni mərhələyə keçidi simvolizə edir; nazirdən "ixtisarlar olacaqmı" sualına cavab




Sərəncama əsasən, Elm və Təhsil Nazirliyi ilə yanaşı, Nazirlər Kabineti və Maliyyə Nazirliyi də bu dəyişikliklərin icrası ilə bağlı müvafiq tədbirləri görməli və yeni qurumların maliyyə təminatını gələcək dövlət büdcələrində nəzərə almalıdır.

İnstitutların birləşdirilməsi nəticəsində idarəetmə strukturunda ixtisarlar, texniki resursların, elmi personalın daha düzgün bölgüsü mümkün olacaq. Bu, həm də elmi əməkdaşlıq üçün daha geniş imkanlar yaradacaq. İnstitutlar birləşdirilməsindən elm qazanacaq, yoxsa büdcə?

**Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov "Yeni Müsavat"a danışıb. Ekspert deyib ki, sərəncam elmi idarəetmədə yeni mərhələyə keçidi simvolizə edir**: "Bu sərəncamla Elm və Təhsil Nazirliyinin tabeliyində olan bir sıra elmi müəssisələrin publik hüquqi şəxslər kimi yenidən təşkili nəzərdə tutulur. Birləşmə prosesi mərhələli şəkildə həyata keçiriləcək və 2025-ci ilin sonunadək tamamlanmalıdır. Bu dəyişikliklərin məqsədi kimi elmi idarəetmədə çevikliyin təmin olunması, maddi resursların rasional bölüşdürülməsi, təkrarçılığın aradan qaldırılması, texniki və inzibati ştatların optimallaşdırılması göstərilir. Ancaq bütün bu təşəbbüslərin arxasında duran əsas sual hələ də açıq qalır: bu islahat həqiqətən elmin inkişafına xidmət edəcəkmi?

Azərbaycan Respublikasının "Elm haqqında" Qanunun 3.2-ci maddəsində qeyd olunur ki, "dövlətin elmi siyasəti elmin milli maraqlara uyğun inkişaf etdirilməsi və beynəlxalq səviyyədə rəqabət qabiliyyətinin artırılması prinsiplərinə əsaslanır". Əgər elmi institutların birləşdirilməsi bu prinsiplərə uyğun şəkildə aparılarsa, nəticədə həm elmi məhsuldarlıq, həm də innovasiya potensialı artacaq. Lakin bu struktur dəyişiklikləri təkbaşına kifayət deyil. İnstitutların birləşməsi yalnız texniki və inzibati bir addım olaraq qalarsa, elmi məhsuldarlıq və keyfiyyət artımı gözləmək reallıqdan uzaq olacaq".

**Ekspert deyib ki, birləşmə nəticəsində müsbət gözləntilərdən biri idarəetmədə səmərəliliyin artması, maliyyə və texniki resursların daha məqsədyönlü istifadəsidir**: "Bu zaman paralel tədqiqat aparan institutların bir araya gətirilməsi, elmi laboratoriyaların birləşdirilməsi və infrastrukturun bölüşdürülməsi həm xərcləri azaldacaq, həm də sinerji yaradacaq. Həmçinin publik hüquqi şəxs statusu bu qurumlara daha çevik maliyyə planlaması və beynəlxalq donorlarla işləmək imkanı verəcək. Əgər bu struktur çevikliyi elmi təşəbbüslərlə uzlaşsa, bu, institutların yalnız dövlət sifarişi ilə deyil, özəl sektorla da əməkdaşlıq etməsinə zəmin yaradacaq".

**Müsahibimizə görə, məsələnin mənfi tərəfləri də nəzərə alınmalıdır**: "İlk növbədə, bu cür birləşmələr zamanı ən çox itirən tərəf adətən elmi kollektivin sosial təminatı və motivasiyası olur. Əməkhaqqı sistemində aydınlıq olmadıqda, kadrların seçimi və vəzifəyə təyin olunmalar şəffaf meyarlarla aparılmadıqda, bu, elmi mühitdə daxili gərginlik və apatiya yaradır. Birləşmə nəticəsində texniki heyətin və inzibati ştatların ixtisar olunacağı ehtimalı var və bu, kadr təhlükəsizliyi baxımından əlavə narahatlıqlar yaradır. Əgər bu struktur islahat paralel olaraq elmi fəaliyyətin məzmununda dəyişiklik yaratmasa, uzun illər elmdə çalışan kadrlar sistemdən uzaqlaşacaq və bu da gənc tədqiqatçıların motivasiyasına mənfi təsir edəcək.

Dünya təcrübəsində elmi institutların birləşdirilməsi müxtəlif nəticələr doğurub. Məsələn, Finlandiyada 2000-ci illərin əvvəllərində elmi mərkəzlər universitetlərə inteqrasiya olundu və nəticədə həm beynəlxalq layihələrin sayı artdı, həm də tətbiqyönümlü tədqiqatların həcmi genişləndi. Digər tərəfdən, bəzi Şərqi Avropa ölkələrində oxşar islahatlar əsasən struktur yüklərinin azaldılması və büdcəyə qənaət məqsədilə aparıldığından, elmi nəticələrdə ciddi dəyişiklik baş vermədi. Bu təcrübələr göstərir ki, islahatın uğuru yalnız inzibati dəyişikliklə deyil, elmi fəaliyyətin stimullaşdırılması, nəticəyönümlü maliyyələşmə mexanizmlərinin yaradılması və akademik azadlığın qorunması ilə bağlıdır.

Bu kontekstdə Elm və Təhsil Nazirliyi və Nazirlər Kabineti qarşısında duran əsas məsələ yalnız strukturun təşkilatı dəyişikliklərini həyata keçirmək deyil, elmi mühitin keyfiyyətini dəyişməkdir. Birləşmiş institutlar müasir tədqiqat mərkəzlərinə çevrilməli, orada beynəlxalq qrant layihələri üçün dəstək sistemləri qurulmalı, multidisiplinar araşdırmalara şərait yaradılmalı və gənc alimlərin elmi fəaliyyətə cəlbi üçün mexanizmlər tətbiq edilməlidir.

Nəticə olaraq, institutların birləşdirilməsi potensial olaraq pozitiv bir islahat ola bilər. Amma bu, yalnız o zaman real nəticə verəcək ki, idarəetmədə çeviklik elmi təşəbbüskarlıqla, büdcə qənaəti isə elmi məhsuldarlıqla müşayiət olunsun. Əks halda, bu islahat sadəcə struktur dəyişiklik kimi tarixə düşəcək, elm isə yenə də gözləmə mövqeyində qalacaq".

**İqtisadçı Natiq Cəfərli isə qeyd edir ki, bu, əslində büdcənin optimallaşdırılmasıdır**: "Doğrudur, əgər büdcənin optimallaşdırılması nəticəsində xərclərin azaldılması ilə yanaşı, effektivlik də yüksələcəksə, bu, elm sahəsində müsbət rol oynayacaq. Amma görünən odur ki, bu sahədə bir pərakəndəlik var idi. Bunu bir mərkəz altında birləşdirib kifayət qədər effektiv strukturlar yaratmaq mümkündür. Bu sərəncam da həmin effektiv strukturların yaradılması yolunda atılan ilk addımdır. Bu, xərcləri optimallaşdıracaq, lakin eyni zamanda elmi fəaliyyəti də yüksəldəcəksə, təbii ki, bunun Azərbaycan üçün ciddi effekti ola bilər".

"Hazırda Azərbaycanda 150-dən artıq elmi müəssisə fəaliyyət göstərir. Lakin bu say elmi məhsuldarlıqla mütənasib deyil".

Bu fikirləri isə **elm və təhsil naziri Emin Əmrullayev** Azərbaycan Dövlət İqtisad Universitetində keçirilən "Elm festivalı"nda səsləndirib. Nazir xüsusi olaraq qeyd edib ki, ayrı-ayrılıqda tədqiqatçıların əməyini qiymətləndirmək lazımdır. Lakin ümumi mənzərəyə baxdıqda bəzi elmi müəssisələrdə, ümumiyyətlə, elmi məhsul istehsal olunmur: "Halbuki ölkə üzrə elmin maliyyələşdirilməsi eynidir. Məsələn, bir qurumun illik saxlanma xərci bir milyon manat təşkil edir, lakin nəticədə təqdim olunan elmi məqalələrin sayı cəmi bir ədəddir. Əgər biz elmin inkişafını təmin etmək istəyiriksə, səmərəli maliyyələşməni təşkil etməliyik". Emin Əmrullayev əlavə edib ki, 37 təşkilatda aparılan optimallaşma nəticəsində 17 elmi təşkilat təsis olunub. Lakin bu dəyişikliklər çərçivəsində ixtisarlar nəzərdə tutulmur. "Məqsəd bu deyil", - deyə nazir vurğulayıb.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Bu il 20 min müəllim sertifikatlaşdırmaya cəlb ediləcək



**"Bizim islahat istiqamətlərimiz aydındır. Bu il təxminən, 20 min müəllim sertifikatlaşdırmaya cəlb olunacaq". Bunu elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib.**

O bildirib ki, məktəblərin publik hüquqi şəxsə çevrilməsi təşkilati məsələdir: "Gələcəkdə bu, məktəblərin fəaliyyətinin genişləndirilməsi, daha çox nailiyyət əldə etməsi mənasına da gələ bilər. Hazırda məktəblər regional təhsil idarələrinin tabeliyində fəaliyyət göstərirlər. Məktəbin özünün hüquqi şəxs kimi formalaşması onun idarəsini də təkmilləşdirir. Bu, gedişləsi uzun yoldur. Bizim hazırda gördüyümüz iş transformasiya olaraq prosesi həyata keçirməkdir".

# Buraxılış imtahanlarının cavabları nə vaxt açıqlanacaq?

**Martın 2-də keçirilən tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarının cavabı həftəsonu açıqlanacaq. Bu barədə Dövlət İmtahan Mərkəzinin aparat rəhbəri Vəfadar Misirov deyib.**

O əlavə edib ki, martın 9-da keçirilən imtahanların cavabı isə qaydalara uyğun olaraq 6 həftə sonra açıqlanacaq. Qeyd edək ki, martın 2-də keçirilən buraxılış imtahanlarında 57 mindən çox şagirdin iştirakı nəzərdə tutulmuşdu. İlkin məlumatlara əsasən, 6 nəfərdə mobil telefon, 1 nəfərdə ağıllı saat aşkarlandığı üçün imtahandan xaric edilib. 2 nəzarətçi isə iştirakçılara kömək etməyə cəhd etdiyi üçün imtahandan kənarlaşdırılıb. Qeyd olunan hallarla bağlı araşdırma aparılır.

# Qarabağ Universitetində Kənd təsərrüfatı fakültəsi açılacaq




**2026-cı ildə Qarabağ Universitetində Kənd təsərrüfatı fakültəsi açmağı planlaşdırırıq.**

APA xəbər verir ki, bunu Xankəndi şəhərindəki Qarabağ Universitetində keçirilən 7-ci ADA Siyasi Forumundakı çıxışı zamanı Qarabağ Universitetinin rektoru Şahin Bayramov deyib.

O, eyni zamanda həmin il üçün rəhbərlik etdiyi ali təhsil ocağının digər planlarından bəhs edib: "2026-cı ildə həmçinin universitetin digər filiallarında İncəsənət və Turizm fakültələri də açılacaq. Bu o deməkdir ki, 2026-cı ildə ölkənin üç ayrı bölgəsində fakültələrimiz fəaliyyət göstərəcək. Bu da Qarabağ Universitetinin qlobal mobilliyin əsas aparıcı qüvvələrindən birinə çevrilməsində önəmli faktor olacaq".

YENİ MÜSAVAT
N 58 (8668) 9 aprel 2025

**Rusiyanın "Binnofarm Group" MMC şirkətinin Azərbaycandakı nümayəndəliyi ləğv olunduğunu elan edib. "Binnofarm Group" Rusiyanın ən böyük dərman istehsalçılarından biridir. Şirkət dünyanın 14 ölkəsinə dərman ixrac edir. "Binnofarm Group" MMC-nin Azərbaycandakı nümayəndəliyi 2022-ci ilin yanvarında dövlət qeydiyyatından keçib. "Binnofarm Group" tibb müəssisələrini müxtəlif formalarda antibiotiklər, endokrinologiya, nevrologiya, kardiologiya və digər terapevtik qruplar üçün dərmanlarla təmin edən xəstəxana seqmenti üçün məhsulların ən böyük təchizatçılarından biridir.**

Bundan bir neçə ay əvvəl Rusiyanın "Nijfarm" əczaçılıq şirkəti də Azərbaycanı tərk edib. "Nijfarm" da Rusiyanın aparıcı farmasevtika şirkətlərindəndir. Şirkətin məhsul portfelinin əsas istiqamətləri - qastroenterologiya, dermatologiya, ginekologiya, urologiya, revmatologiya və pediatriyada istifadə olunan dərman preparatlarıdır.

Qeyd edək ki, Rusiya şirkətlərinin Azərbaycanın dərman bazarına marağı 2015-2016-cı illərdən başlayıb. Həmin illərdə bir neçə Rusiya şirkətindən Azərbaycanda istehsal müəssisələrinin yaradılması ilə bağlı təkliflər irəli sürülsə də, bu sahədə yalnız "R-Pharm" MMC-nin fəaliyyəti real nəticəyə səbəb olub. 2019-cu ildən şirkətin Pirallahı Sənaye parkında müəssisəsi istehsala başlayıb. Müəssisə Almaniya, İtaliya və digər Avropa texnologiyaları əsasında onkologiya, HİV/QİÇS, əsəb, ürək damar, əzələ skelet və tənəffüs sistemi, diabet dərmanları, antibiotik, antivirus, ishal və qusma əleyhinə dərmanlar, həmçinin rentgen və kontrast agentləri üçün əlavələr istehsal etmək niyyətindədir. Müəssisənin illik istehsal gücünün 250 milyon ədəd həb və kapsul təşkil etdiyi bildirilir. Onuninvestisiya dəyəri 16 milyon dollara yaxındı, hazırda 45 işçi var.

Ümumiyyətlə, 2020-ci il COVİD-19 pandemiyası və ondan sonrakı ilkin dövrdə Azərbaycan hökumətindən yerli dərman istehsalının daxili tələbatın 50 faizi həddinə çatdırılmasına dair fikirlər səsləndirilməyə başlandı. Lakin hələlik bu hədəfin onda birinə belə nail olunmayıb. Belə ki, hazırda Azərbaycanın dərman təminatında idxaldan asılılığı az qala 100 faiz təşkil edir. Baxmayaraq ki, son 10 il ərzində dəfələrlə İran, Türkiyə, Rusiya və digər ölkələrin iri əczaçılıq şirkətləri ilə Azərbaycanda istehsal müəssisələrinin yaradılmasına dair danışıqlar aparılıb, razılaşmalar əldə olunub, bu sahədə irəliyə doğru ciddi addımların atıldığını söyləmək mümkün deyil. Belə ki, hələ də ölkənin dərman preparatları ilə təminatında yerli istehsalın payı 1 faizə belə çatmır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2025-ci ilin yanvar-fevral aylarında pərakəndə ticarət nöqtələrindən əhali tərəfindən 230 milyon manatlıq əczaçılıq məhsulları və tibbi ləvazimatlar alınıb. Bu, ötən ilkindən 11,1 faiz çoxdur. Həmin dövrdə yerli dərman istehsalının dəyəri 2 milyon 700,2 min manat təşkil edib. Bu isə 2024-cü ilin eyni dövründəki istehsal həcmindən 13,1 faiz azdır. Rəsmi statistikaya görə, bu ilin iki ayında ölkədə 0,8 milyon ədəd tibbi maska istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 33,3 faiz çoxdur.




# Rusiyanın dərman şirkətləri Azərbaycandan niyə gedir?

## Əczaçılıq şirkətlərinin bazarı tərk etməsi dərman istehsalına xarici investisiya imkanlarının daralması kimi qiymətləndirilməlidir

İki ayda Azərbaycandan xaricə 520 min dollarlıq əczaçılıq məhsulları ixrac edilib. Həmin dövrdə eyni məhsulların idxalının dəyəri 90 milyon 629.96 min dollara bərabər olub. Ötən ilin eyni dövründə ixrac 1 milyon 630.28 min dollar, idxal isə 79 milyon 278.48 min dollar təşkil etmişdi. Bu isə o deməkdir ki, illik ifadədə ixrac 3,1 dəfə azalıb, idxal 14,3 faiz artıb. Dəyər baxımından belə artıma rəğmən, idxal miqdar baxımından azalıb. Belə ki, ötən ilin iki ayında xaricdən 5263 ton əczaçılıq məhsulları alınmışdısa, bu il göstərici 4 min tona düşüb. İdxalın miqdar baxımından azalıb, dəyər baxımından artması ölkənin əczaçılıq idxalının kəskin bahalaşmasından xəbər verir.

Bir çox mütəxəssislər hesab edirlər ki, Azərbaycanda əsas dərman preparatlarının istehsalı qurularsa, dərman bazarında rəqabət mühiti formalaşar, bu isə qiymətlərin əsassız bahalaşmasının qarşısını alar. Yerli istehsalın daxili bazarı ən azı 50 faiz təmin etməsi lazımdır ki, idxalla rəqabət mümkün olsun. Lakin idxaldakı inhisarlaşma yerli istehsalın qurulması yolunda böyük maneəyə çevrilib. Bu ihisarlar idxaldan yüz milyonlarla dollar gəlir əldə etdiklərinə görə yerli istehsalın yaranmasına hər vəchlə mane olurlar. Bunun nəticəsidir ki, 10 ildir ən müxtəlif ölkələrin şirkətləri ilə Azərbaycanda dərman istehsalını inkişaf etdirmək planları reallaşmamış qalır.

Qeyd edək ki, 2016-cı ildə yaradılan Pirallahı Sənaye Parkı sırf əczaçılıq məhsulları istehsalına ayrılıb. Pirallahı SP-nin hazırda 7 rezidenti var, cəmi ikisi məhsul istehsal edir. İqtisadi Zonaların İnkişafı Agentliyindən "Yeni Müsavat"a verilən məlumata görə, parkın rezidenti olan Türkiyə-Azərbaycan birgə müəssisəsi "Gen Pharma Caucasus Manufacturing Operations" MMC tərəfindən Sənaye Parkının ərazisində yüksək keyfiyyətli 42 ad altında müxtəlif doza və qablaşdırma olmaqla ümumilikdə 7 növdə (tablet, kapsul, jelatin kapsul, toz suspenziya, sirop və s.) dərman məhsulun istehsalı həyata keçiriləcək.

"Medtest" MMC şirkəti tərəfindən Sənaye Parkının ərazisində "Qanda şəkəri təyin edən cihaz (qlukometr) və striplər istehsalı layihəsi", "AzMedPlant" MMC-də birdəfəlik üçkomponentli şprislərin istehsalı, "Supreme Pharmatech Azerbaijan" MMC isə bioloji aktiv qida əlavələrinin və dərman vasitələrinin istehsalını təşkil edəcək.

Pirallahıda fəaliyyət göstərən "Diamed" MMC artıq bir neçə ildir şpris və tibbi maska istehsal edir.

Dərman istehsalı ilə məşğul olan daha bir şirkət "Azər-Farm LTD"dir. Saytlarında qeyd olunur ki, şirkətdə müxtəlif farmakoloji qruplardan olan 70-ə yaxın dərman preparatları istehsal olunur.

Pirallahı Sənaye Parkından kənarda fəaliyyət göstərən "Parla Pharmaceuticals" 2019-cu ildə fəaliyyətə başlayıb. Şirkətin saytında onun Azərbaycanın ilk elmi əsaslı əczaçılıq şirkəti olduğu qeyd edilir. Bildirilir ki, şirkətin istehsal etdiyi 11 növ dərman vasitəsi artıq satışdadır. Şirkət antibiotik, uroloji, şəkərli diabetin müalicəsində istifadə olunan, göbələk əleyhinə, iltihab əleyhinə, ağrıkəsici preparatların və insan boy hormonunun istehsalını həyata keçirir. Tezliklə insulinlərin, hematologiya, onkologiya və başqa terapevtik sahələrdə də bir sıra digər molekulların istehsalına başlayacağı gözlənilir. Şirkət rəhbərliyi bildirir ki, "Parla Pharmaceuticals" 400-dən çox molekulun tam istehsalını həyata keçirəcək.

Ümumilikdə, Pirallahı Sənaye Parkına rezidentlər tərəfindən 71,3 milyon dollarlıq sərmayə qoyulması, 555 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

Pirallahıdan kənarda yaradılmasına başlanan daha bir dərman istehsalı zavodunun Ələt Azad İqtisadi Zonasında yerləşməsi nəzərdə tutulur. 2022-ci ildə zona rəhbərliyi ilə İsrailin BioPharmax şirkəti arasında müvafiq müqavilə imzalanıb. Yaradılacaq müəssisədə 50 addan çox dərman vasitələrinin istehsal olunacağı deyilir, lakin 2 ildən çox vaxt keçsə də, işlərin gedişinə dair hər hansı açıqlama verilməyib.

ABŞ administrasiyasının başlatdığı rüsum-ticarət müharibəsi fonunda qlobal ticarətin əsaslarının sarsılması hər bir ölkənin əsas məhsullarla özünütəminatını bir daha aktuallaşdırır. Belə bir vaxtda Rusiya əczaçılıq şirkətlərinin Azərbaycandan getməsi ilk növbədə dərman istehsalına xarici investisiya imkanlarının daralmasının göstəricisi kimi mənfi qiymətləndirilməlidir. Rusiya əczaçılıq şirkətlərinin Azərbaycan bazarından çıxmasının səbəbləri müxtəlif ola bilər.

Aydındır ki, mülki təyyarəmizin vurulmasından sonra Rusiya - Azərbaycan münasibətlərində soyuqluq yaranıb. Lakin şirkətlərin getmə qərarında bu amilin rolunun olduğunu söyləmək qeyri-mümkündür. Çünki son həftələrdə iki ölkə arasında münasibətlərin yenidən istiləşməsi müşahidə olunur. Bundan əlavə, yanvar-fevralda Rusiya ilə Azərbaycan arasında ticarətdə böyük artım qeydə alınıb. Dövlət Gömrük Komitəsinin statistikasına əsasən, iki ölkə arasında ticarət əməliyyatlarının həcmi 997,9 milyon ABŞ dolları təşkil edib. Bu, 2024-cü ilin eyni aylarındakı göstərici ilə müqayisədə 406,7 milyon ABŞ dolları və ya 68,8 faiz çoxdur. Hesabat dövründə Rusiya ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 11,21 faizini təşkil edib.

Yanvar-fevral aylarında Azərbaycandan Rusiyaya 150,9 milyon dollarlıq məhsul ixracı qeydə alınıb. Bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 4,3 milyon ABŞ dolları və ya 2,7 faiz azdır. Hesabat dövründə Rusiyadan Azərbaycana 847,1 milyon ABŞ dolları dəyərində məhsul idxal edilib ki, bu da illik müqayisədə 410,9 milyon ABŞ dolları və ya 94,2 faiz artım deməkdir.

**İqtisadçı-ekspert Natiq Cəfərliyə görə, Rusiya əczaçılıq şirkətlərinin Azərbaycanda fəaliyyətini dayandırmasının bir neçə səbəbi ola bilər:** "Birinci səbəb bu ola bilər ki, Qərb dövlətləri Rusiya maliyyə qurumlarına, banklarına, Rusiya ilə maliyyə əməliyyatlarına çox kəskin məhdudiyyətlər tətbiq ediblər. Bu məhdudiyyətlər həmin şirkətlərin Azərbaycanda fəaliyyətinə problem yarada bilər. İkinci səbəb bu ola bilər ki, sanksiyalar Rusiyanın özündə ciddi problemlər yaradıb. Xüsusilə dərman istehsalı azalıb, dərman bazarında çatışmazlıq kəskinləşib. Həm sanksiyalara görə dərman istehsalında zəruri olan xammal əldə etmək mümkün olmur, həm də müharibəyə görə dərman preparatlarına tələb artır. Böyük ehtimalla, əczaçılıq şirkətlərinin gedişində bu amillər həlledici olub. Daha bir səbəb budur ki, görünür, Azərbaycanın özündə həmin firmaların dərmanlarını daha ucuz analoqları ilə əvəz etmək yolları tapılıb. Belə dərmanların Hindistandan idxalı son vaxtlar sürətlə artır".

**Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 58 (8668) 9 aprel 2025

**İranın dini liderinin İraq, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Qətər, Türkiyə və Bəhreynə rəsmi xəbərdarlıqlar göndərdiyi iddia olunur. Xəbərdarlıqda ABŞ-ın mümkün hücumuna hər hansı dəstək, o cümlədən sözügedən ölkənin qoşunlarının yerləşdirilməsi və hava məkanından istifadə üçün ərazinin verilməsi düşmənçilik aktı kimi qiymətləndiriləcək, belə bir hərəkətin onlar üçün ağır nəticələri olacağı qeyd olunub.**

# Xameneinin Türkiyəyə hədəsi

## Qonşuları hədələməklə Tehran heç nə qazanmayacaq



Son aylar Türkiyə və İran arasında diplomatik münasibətlərdə gərginlik müşahidə olunur. Xüsusilə Türkiyənin xarici işlər naziri Hakan Fidanın İranın Yaxın Şərqdəki milis qruplarına verdiyi dəstəyi tənqid etməsi, qarşılıqlı diplomatik notaların verilməsinə səbəb olub. Bu gərginlik fonunda, iki ölkənin regional siyasətə yanaşmaları, Suriyadakı qüvvələr balansı və ümumilikdə Yaxın Şərqdəki strateji maraqları yenidən müzakirə mövzusuna çevrilib.

Türkiyə və İran arasındakı gərginlik regional siyasətə necə təsir edəcək və bu, gələcəkdə iki ölkə arasında daha ciddi qarşıdurmaya səbəb ola bilərmi?

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədr müavini Günay Ağamalı "Yeni Müsavat"a söylədi ki, son dövrlər qardaş Türkiyə və İran arasında münasibətlərin gərginləşdiyinin şahidi oluruq:** "Regional maraqlardan irəli gələn fərqli yanaşmalar tərəflər arasında müxtəlif mövzularda qarşılıqlı ittihamlarla müşahidə olunur. Rəsmi Tehranın Türkiyənin də aralarında olduğu bölgə dövlətlərini təhdid etməsi bunun bariz nümunəsidir. İndiki situasiyada rəsmi Tehran və Ankara arasındakı gərginliyin inkişaf tendensiyası böyük ölçüdə ABŞ-ın İranla bağlı atacağı addımlardan asılı olacaq. Lakin yaxın perspektivdə iki dövlət arasında eskalasiyanın baş verəcəyini düşünmürəm".

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov isə düşünür ki, Türkiyə ilə İran region uğrunda tarixən rəqabətdə olub və bu mübarizə bu gün də davam edir**: "Türkiyə ilə İran arasında münsibətlərin gərginləşməsi məhz Ankaranın Suriyada möhkəmlənməsindən sonra baş verdi. Türkiyənin Suriyada iki hərbi baza yaratmaq istəyi təkcə İranı əndişəyə salmayıb, bundan İsrail də ciddi narahatdır. Yaxın Şərqdə Türkiyənin mövqeyi həmişə güclü olub və bu da İrandan fərqli radikal din ixraci həsabına olmayıb. Məsələnin təhlükəli tərəfi ondadır ki, İran istəsə də, istəməsə də gec-tez İsrail və ABŞ onu münaqişəyə cəlb edəcək. İsrailin strateji hədəflərində İran rejimi sıradan çıxarılmalı, yaxud da tam təsirsiz hala salınmalıdır. Nüvə proqramı sadəcə bəhanədir. İsrail regionun şəriksiz güc mərkəzi olmalıdır. Təəssüflər olsun ki, Tehran hələ də anlamaq istəmir ki, Türkiyə ilə rəqabət və qarşıdır. Əksinə, hesab edirəm ki, həmin ölkələr də mümkün hərbi müdaxilənin onlar üçün də doğuracağı fəsadları anlayaraq bunun baş verməsini istəmirlər. İrana hava zərbələri İsraildən də, ABŞ-ın müxtəlif regionlarda yerləşdirdiyi hərbi bazalarından da endirilə bilər. Bunun qarşısını almağa, yaxud da ciddi adekvat zərbələr endirməyə İranın hərbi potensialını görmürəm. İranın Hərbi Hava Qüvvələrini şişirtmələrinə baxmayaraq hava məkanını elə də etibarlı qoruyacağını düşünmürəm. İkincisi isə İsraillə ABŞ İrana qarşı quru əməliyyatları aparmayacaq. Starteji və müdafiə qabiliyyəti üçün əhəmiyyət kəsb edən obyektlər hədəf götürüləcək. İran bu riskləri önləmək üçün region dövlətləri və regional güc mərkəzləri ilə, xüsusən də Türkiyəyə qarşı ritorikasını və üslubunu dəyişməlidir. Bəlkə belə olan halda düşdüyü ağır və mürəkkəb durumdan xilas ola bildi. Onsuz da İran hazırda Türkiyə ilə rəqabət aparacaq gücdə olmadığından Ankaraya sığınmalıdır".

**Beynəlxalq münasibətlər üzrə şərhçi Şəhla Cəlilzadə cənub qonşumuzun diplomatik alətlərdən istifadə etdiyini qeyd etdi**: "ABŞ-ın İranla durmaya getməkdənsə əməkdaşlıq hər iki ölkə üçün faydalı və ümumi təhlükəyə qarşı dayanmaq rahat olardı. Qonşuları hədələmək, şantaj etmək Tehran heç nə qazanmayacaq, bu özünə qarşı işləyən halrazılaşma əldə olunmazsa onun nüvə obyektlərini vurmaqla bağlı hədələri fonunda Yaxın Şərqdə yeni müharibənin alovlanma ehtimalı gedərək artır. Bunun qarşısını almaq üçün İran diplomatik alətlərdən maksimum istifadə edir. Bu çərçivədə şənbə günü Omanda, Maskat şəhərində İran XİN rəhbəri Abbas Araqçı ilə ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiven Uitkoff görüşərək danışıqlar aparacaqlar. Bu danışıqların nəticəsinə bağlı olaraq Yaxın Şərqdə qarşıdakı dövr üçün regional vəziyyət müəyyənləşəcək. İran diplomatik danışıqlar aparmaqla yanaşı, müharibəyə də hazırlaşır. Keçirilən hərbi təlimlərlə ordunun müharibə hazırlığı vəziyyətinə gətirilməsindən əlavə, regionda ABŞ-la isti münasibətləri olan və amerikan hərbi bazalarına ev sahibliyi edən ölkələrə xəbərdarlıq göndərilib. Belə ki, İraq, Küveyt, BƏƏ, Qətər, Türkiyə və Bəhreyndə ABŞ-ın hərbi bazaları mövcuddur. ABŞ-ın hücum zamanı bu bazalardan istifadə etmək istəyəcəyi aydındır. İran isə Yaxın Şərqdəki qonşularını öncədən xəbərdar edir. Məsələn, Türkiyə ABŞ-ın 2003-cü ildə İraqa hərbi müdaxiləsi zamanı öz ərazisindəki hərbi bazasından istifadə etməyə izn verməmişdi. Bu qərar Türkiyə siyasi administrasiyasında xeyli müzakirələr doğurmuşdu. Həmin dövrdə ABŞ-la müttəfiqliyə görə İraqa müdaxiləni dəstəkləyən qüvvələr də vardı. Lakin Türkiyə Böyük Millət Məclisi "2003 Muhtırası" ilə Türkiyəni bu müdaxilədə iştirakdan xilas etmişdi. Bilirik ki, ABŞ-ın İraq müdaxiləsi fiasko ilə nəticələnmişdi. Türkiyə ABŞ-ın İrana ehtimal olunan müdaxiləsi zamanı da hər hansı bir hərbi dəstək verməyəcək. Türkiyə XİN rəhbəri Hakan Fidan regionda yeni gərginliyi, o cümlədən ABŞ-ın İrana hücumunun baş verməsini istəmədiklərini deməklə, həm də bu gərginliyin yaradılmasında tərəf olmayacaqlarını dolayısıyla dünyaya bəyan edir. Ümumiyyətlə, Türkiyə və İran Yaxın Şərqdəki münaqişələrin fərqli tərəflərini dəstəkləsələr də, fərqli kamplarda olsalar da, onların ortaq əməkdaşlıq sahələri də mövcuddur. Xüsusilə İsrailin çəkindirilməsinə dair ortaq maraqları qeyd oluna bilər. Küveyt də artıq İrana bildirib ki, öz ərazisindən ABŞ-ın hücum məqsədilə istifadəsinə imkan verməyəcək. ABŞ-ın hərbi müdaxiləsində iştirak edib-etməmək qərarı müvafiq ölkələrin İranla münasibətlərinin gələcəyinin müəyyən edilməsində əsas amil olacaq. Ümumiyyətlə isə İranla birbaşa müharibəyə girməsi heç ABŞ üçün də arzuolunan deyil. Elə buna görə də Tramp bəyan edib ki, İranla birbaşa görüşümüz var. Bəlkə də möhtəşəm bir anlaşma əldə olunacaq".

**Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Dünyanı dərdə salıb təmtəraqlı ad günü düşünür

## Trampın 79 yaşını paradla qeyd etmək istəməsinə etirazlar var



**ABŞ Donald Tramp 79 illiyini təmtəraqlı hərbi paradla qeyd etməyi planlaşdırır. Onun doğum günü - 14 iyun tarixi ABŞ ordusunun yaradılmasının 250 illiyinə təsadüf edir.**

ABŞ mətbuatı xəbər verir ki, Tramp həmin gün Arlinqtondan Vaşinqtona qədər, təxminən 6.4 kilometrlik hərbi yürüş təşkil etməyi düşünür.

Ağ Ev bu xəbəri rəsmi olaraq təkzib edib və bildirib ki, "heç bir parad planlaşdırılmayıb", ancaq ABŞ ordusunun nümayəndələri ehtiyatla danışıblar. Polkovnik Devid Batler bildirib ki, hələlik paradın olub-olmayacağını demək tezdir: "Lakin biz tədbirin milli səviyyədə qeyd olunması üçün bir neçə dövlət agentliyi ilə əməkdaşlıq edirik".

Vaşinqton və Arlinqton yerli rəhbərləri isə Trampın bu planlarına etiraz ediblər. Vaşinqton meri Müril Bouzer mətbuat konfransında qeyd edib ki, bu cür tədbir yolların ciddi şəkildə zədələnməsinə səbəb ola bilər. "Küçələrimizdə tanklara ehtiyac yoxdur", - deyə Bouzer vurğulayıb.

Arlinqton dairəsi şurasının sədri Takis Karantonis isə bildirib ki, hərbi paradın təmtərağı ilə ölkədəki sosial qeyri-müəyyənlik arasında balans qorunmalıdır. O, federal hökumətin Tramp və onun idarəetməsindəki Elon Mask tərəfindən başladılan ixtisarlar səbəbindən iş yerlərini itirən hərbçilər və veteranların durumunu nəzərə almalı olduğunu bildirib.

CNN kanalı da Trampın planını tənqid edib. Aparıcı Erin Bernett bu tipli paradların daha çox Çin, Rusiya və Şimali Koreya kimi ölkələrdə müşahidə olunduğunu qeyd edib. Onun sözlərinə görə, paradda tanklar, taktiki maşınlar və canlı hərbi qüvvənin iştirakı gözlənilir.

Xatırladaq ki, Tramp prezidentliyinin ilk dövründə də oxşar təşəbbüslə çıxış edib. 2017-ci ildə Fransada Bastiliya Günündə keçirilən hərbi paraddan ilhamlanan Tramp ABŞ-da da bənzər tədbir keçirmək istəsə də, yüksək xərclər səbəbi ilə bu ideyasını gerçəkləşdirə bilməyib. Həmin vaxt tədbirin dəyəri minimum 21.6 milyon, maksimum isə 92 milyon dollar olaraq qiymətləndirilmişdi.

"Böyük hərbi parad üçün bizdən istənilən vəsait o qədər gülünc dərəcədə yüksək idi ki, tədbiri ləğv etdim", - Tramp bildirib.

YENİ MÜSAVAT
N 58 (8668) 9 aprel 2025

# Qadınların pensiyaya çıxması qaydası dəyişir

## Ekspet uşaqların sayına görə qadınların pensiya yaşının azaldılması təklifindən danışdı: "Təklif verərkən iqtisadi və maliyyə əsaslandırması da təqdim edilməlidir"

**Pensiya yaşında işləmək istəyənlər olduğu kimi, erkən dövrdə pensiyaya çıxmağı arzulayanlar da var. Bundan başqa, 5 və daha çox uşaq dünyaya gətirib, övladlığa və ya qəyyumluğa götürüb onları 8 yaşınadək tərbiyə etmiş və böyütmüş qadınların yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ var. Eyni zamanda əlilliyi müəyyən edilmiş uşağını 8 yaşınadək tərbiyə etmiş anaların yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ mövcuddur.**

Qadınların pensiyaya çıxması qaydasının uşaqların sayına görə müəyyənləşdirilməsi təklif olunur. Bunu **Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov** komitənin iclasında "Əmək pensiyaları haqqında" Qanuna təklif edilən dəyişikliklərin müzakirəsi zamanı deyib.

Onun sözlərinə görə, qanunda güzəştli şərtlərlə pensiyaya çıxmaq hüququ yalnız kəmiyyət deyil, keyfiyyət prinsipi ilə müəyyən edilməlidir: "Çoxuşaqlı ailələrdə valideynlərin pensiyaya tez çıxmaq müddəti uşaqların sayına uyğun müəyyənləşdirilməlidir. 5 və daha artıq uşağı olan şəxslər daha tez pensiyaya çıxa bilirlər. Lakin bəzi ailələrdə 5-dən çox uşağı olanlar var. Təklif edirəm ki, pensiyaya tez çıxmaq üçün nəzərdə tutulan güzəştlər ailədəki uşaq sayına görə müəyyənləşsin".

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri Elnur Abbasov Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında "Əmək pensiyaları haqqında" Qanunun müzakirəsi zamanı deyib:** "Hazırda xanımlara pensiya hesablayarkən, fərz eləyin ki, qadın 30 yaşında ailə qurub, birinci uşağı fiziki qüsurlu dünyaya gəldi və anadangəlmə birinci qrup əlil oldu. Amma bu xanım evlənən vaxt işləyirdi. Birinci qrup əlil uşağına baxmaq üçün o, işdən çıxmaq məcburiyyətində qalır. O qadın 65 yaşına çatanda onun evlənənə qədərki işlədiyi dövrü sığorta stajı, üstəgəl həmin o əlil uşağa baxdığı dövrü onun stajına sayırıq və pensiya hüququ yaradırıq. Amma şərt budur ki, o uşaq anadangəlmə və ya 18 yaşa qədər qazanılmış birinci qrup əlil olsun. Yaxud da ahıl şəxslərlə bağlı, gəlin qayınatasının 70 yaşı var və ona baxmaq üçün iş yerini tərk etmək məcburiyyətində qalır. Onun da 70 yaşdan yuxarı ahıla baxdığı bütün illəri sığorta stajına sayırıq. Bu, bu gün belədir, sabah da belə olacaq. Sadəcə, biz Maliyyə Nazirliyi ilə onu razılaşmışıq ki, həmin uşaq və ya ahıla baxılması dövrlərini ki, biz staja sayırıq, onu qadın özü qazanmayıb, dövlət onu güzəşt edir deyə bunu dövlət ödəyir".

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov** "Yeni Müsavat" a mövzunu şərh edərkən bildirdi ki, qanunvericilik təşəbbüsü hüququ olan şəxs hər hansı təklif verərkən iqtisadi və maliyyə əsaslandırmasını da təqdim etməlidir: "Uşaqların sayına görə qadınların pensiya yaşının azaldılması məsələsi ilə bağlı əsaslandırma varmı? Məlumdur ki, "Əmək pensiyaları haqqında" Qanunun 7-ci maddəsinə əsasən, 2017-ci ildən başlayaraq hər il qadınların pensiya yaşı 6 ay artırılır. Bu proses 2027-ci ilə qədər davam edəcək. Beləliklə, 1 iyul 2024-30 iyun 2025-ci il tarixində kişilərin pensiya yaşı dəyişməz qalaraq 65, qadınların pensiya yaşı isə 6 ay artırılaraq 64 olacaq. Bu prosesin 2027-ci ildə yekunlaşacağı və nəticədə həm kişilərin, həm də qadınların pensiya yaşının 65-ə bərabərləşəcəyi bildirilir. Eyni zamanda "Əmək pensiyaları haqqında" Qanunda uşaqların sayına görə əmək pensiyası hüququ nəzərdə tutulub. Fikrimcə, hazırda təklifin reallaşması qeyri-mümkündür, çünki DSMF-də yığım azdır, 5 milyon məşğul insan olmasına baxmayaraq, onlardan yalnız 1 milyon 800 mini muzdlu işə cəlb olunanlardır. Özəl sektorda ikili mühasibatlıq, aşağı maaş göstərmə ilə bağlı yığım böyük deyil, amma olsa idi, yaxşı olardı".

**O ki qaldı 65-dən daha erkən dövrlərdə pensiya hüququ qazanan kişilərə, Dövlət Sosial Müdafiə Fondunun departament müdiri Rəşad Mehdili Bizim.Media-ya açıqlamasında pensiya yaşı azaldılan şəxslər barədə bunları deyib:** "Məsələn, qadın vəfat etdiyi (məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə ölmüş və ya xəbərsiz itkin düşmüş elan edildiyi), habelə məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən valideynlik hüququndan məhrum edildiyi və ya nikaha xitam verildiyi üçün uşağın (uşaqların) kişinin himayəsinə verildiyi hallarda valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş səkkiz yaşınadək övladlığa və ya qəyyumluğa götürülmüş uşaqlar da daxil olmaqla beş və daha çox uşağı olan və ya əlilliyi müəyyən edilmiş uşağı olan kişilərin, uşaqların səkkiz yaşınadək sağ olması şərtilə, yaş həddi 5 il azaldılmaqla pensiya hüququna baxılır.

Bundan başqa, əmək şəraitinin zərərli və ağır olmasına görə güzəştli şərtlərlə əmək pensiyası hüququ verən sahələrdə 12 il 6 ay çalışmış kişilərin fərdi hesabında minimum pensiya təminatına imkan verən pensiya kapitalı olduqda sığorta stajından asılı olmayaraq, bu kapitalı olmadıqda 25 il ümumi sığorta stajı olduqda yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ var".



**Rəşad Mehdili eyni zamanda diqqətə çatdırıb ki, bir çox halda pensiya yaşı 15 il azaldıla bilər:** "Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işlə əlaqədar vəzifələrdə çalışan kişilər, həmin işlər üzrə azı 25 il, səhhətinə görə uçuş işindən azad olunmuş kişilərin isə həmin işlər üzrə azı 20 il sığorta stajı olduqda yaş həddi 15 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ var.

Hipovizqanizm xəstəliyinə tutulan kişilərin (liliputların) və fizioloji mütənasibliyi pozulmuş cırtdanboy kişilərin azı 5 il sığorta stajı olduqda yaş həddi 20 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ var. Həmçinin hərbi qulluqçular və xüsusi rütbəli şəxslər qanunvericiliyə uyğun olaraq tələb olunan xidmət müddəti olduqda onların yaş həddindən asılı olmayaraq (hərbi qulluqçulara yaşa görə əmək pensiyası hərbi xidmətdən buraxıldıqdan sonra təyin olunur) pensiya hüququ yaranır".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

**Elan:**

**AHXÇDX-nin Tovuz rayon şöbəsi (keçmiş Tovuz rayon Hərbi Komissarlığı) tərəfindən Rzayev Təvəkkül Novruz oğlunun adına 26 noyabr 1985-ci ildə verilmiş A-458686 nömrəli Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

# Pensiyalar bu tarixdə ödəniləcək

**Aprelin 10-da Bakı və Sumqayıt şəhərləri, eləcə də Abşeron rayonu üzrə bu ayın pensiyalarının ödənilməsi nəzərdə tutulub. Bu barədə Dövlət Sosial Müdafiə Fondu məlumat yayıb.**

Qeyd edək ki, güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin pensiyaları bu ay da qrafik üzrə ödəniləcək.

# Bir gündə kartlardan 67 min manat oğurlandı

**Xarici müdaxilələrlə vətəndaşların aldadılaraq bank kartlarının talanması halları davam edir. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidməti məlumat yayıb.**

Bildirilib ki, aprelin 7-də ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsulla - 17451, 16000, 6697, 6321, 6000, 5000, 3700, 2000, 1968, 1800, 960, 420, 380, 250, 50 manat pul vəsaitləri bank kartlarından oğurlanıb:

"Kiber məkanda sxemlər tez-tez dəyişir, lakin prinsiplər dəyişmir. Bank kartları ilə əlaqəli xarici zənglər, mesajlar cavablamadan, saxta linklərə daxil olmadan bloklanmalıdır. Əks halda, bank kartında olan pul vəsaitinizi talayacaqlar.

Bir daha vətəndaşlara şübhəli zənglərdən gələn cəlbedici qazanc, sığorta, bank hesablarının möhkəmləndirilməsi, mədaxil üzrə ödənişlərlə əlaqəli təkliflərə diqqətlə yanaşmağı tövsiyə edirik. Qəti formada şəxsi bank məlumatlarını naməlum şəxslərə verməyin".

# Mədəni sərvətlərə vahid qaydada pasport veriləcək

**Mədəni sərvətlərə vahid qaydada pasport veriləcək.**

Bu, Milli Məclisin Mədəniyyət komitəsinin aprelin 8-də keçirilən iclasında müzakirəyə çıxarılan "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, daşınmaz abidələrin pasportlaşdırılması qaydaları və pasportun nümunəvi forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək.

Qeyd edilib ki, dövlət mühafizəsinə götürülən abidələrin sənədləşdirilməsi ilə bağlı milli pasport formasının yaradılmasının zəruriliyi nəzərə alınaraq ölkəmizdə 2012-2013-cü illərdə nümunəvi milli pasport forması hazırlanıb. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanının 2.9-cu hissəsinə əsasən abidələrin pasportlaşdırılmasını Mədəniyyət Nazirliyi tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, "İçərişəhər" Dövlət Tarix Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində həyata keçirir. Həmçinin Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsinə əsasən qoruq idarəsi abidələrin pasportlaşdırılması işlərini həyata keçirməlidir.

YENİ MÜSAVAT
N 58 (8668) 9 aprel 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

# “Böyük Qayıdış”ın zəfər həftəsi

### “Bu gün hər bir azərbaycanlı bayrağımızın Şuşada və digər ərazilərimizdə dalğalanmasından sonsuz qürur duymaqdadır”

**Şanlı Azərbaycan Ordusunun işğaldan azad etdiyi Qarabağa “Böyük Qayıdış” prosesi son bir həftədə daha da sürətlənib. Əvvəlcə ötən həftə Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə köç karvanı yola salınıb. Bu mərhələdə kəndə 28 ailə - 110 nəfər köçürülüb. Ağdamla bağlı növbəti hədəf şəhərin mərkəzinə qısa müddətdə sakinlərin yerləşdirilməsidir.**



“İşğaldan azad olunmuş Ağdam şəhərinə bu ilin oktyabr-noyabr aylarında ilk köçün həyata keçirilməsi planlaşdırılır”.

Bunu Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov AzTV-yə müsahibəsində deyib.

O bildirib ki, yaxın vaxtlarda rayonun Xıdırlı və Kəngərli kəndlərinə də ilk köç olacaq: “Xıdırlıda 719, Kəngərlidə isə 292 fərdi yaşayış evi tikilib. Bundan başqa, bütün qeyri-yaşayış obyektlərinin də tikintisi başa çatıb. Tamamlanma işləri görülüb. Tezliklə o kəndlərin sakinlərini qəbul etməyə hazırıq. Ağdam şəhərində isə 5 məhəllənin inşası nəzərdə tutulub. Onlardan birinin tikintisinə başlanılıb. Şəhərə oktyabr-noyabr aylarında ilk köç planlaşdırılır. Ağdam təxminən 2000 hektarlıq ərazini əhatə edən 100 min əhalini məskunlaşdıracaq ölkənin 4-cü ən böyük şəhəri olacaq. 2026-cı ilə qədər Ağdama 20-25 min civarında əhalinin köçürülməsi nəzərdə tutulub. Şəhərin 500 hektarlıq ərazisində müxtəlif infrastruktur obyektləri, muğam mərkəzi inşa olunacaq. İmarət Kompleksi hazırdır, Cümə məscidi restavrasiya olunub. İşğal və Zəfər muzeyləri inşa ediləcək. 2026-cı ilin sonuna qədər yaşayış üçün zəruri olan bütün məsələlərin tamamlanması nəzərdə tutulub”.

Qarabağa “Böyük Qayıdış”ın növbəti ünvanı Ağdərə rayonunun Suqovuşan kəndi olub. Ümumilikdə kəndə köçürülmək üçün 180 ailə (591 nəfər) siyahıya alınıb. Köçün ilkin mərhələsində 20 ailə köçürülüb. Aprelin 7-də isə, kəndə 53 ailə - 185 nəfər köçürülüb.

Bu arada qeyd edək ki, ötən həftə aprel döyüşlərinin 9 ili tamam oldu. Həmin döyüşlərdən sonra Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olunmuşdu. Məhz həmin qələbəmiz “Böyük Qayıdış” prosesinin əsasını qoymuşdu.

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıye də belə düşünür:** “9 il öncəki aprel döyüşlərindəki qələbə sayəsində "Böyük Qayıdış" prosesinə start verildi. Bu tarixi zəfərimizin başlanğıcı oldu. Ermənistan Silahlı Qüvvələrinin qoşunların təmas xəttində ardıcıl təxribatlarına cavab olaraq keçirilmiş əks-əməliyyat zamanı qazanılmış qələbə Ordumuzun gücünü, xalqımızın yenilməz ruhunu bütün dünyaya göstərdi. Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti bu qələbə sayəsində “Böyük Qayıdış” prosesinə start verilməsi oldu. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Nəhayət, 2020-ci ilin 44 günlük Vətən müharibəsi və ardınca 1 günlük antiterror əməliyyatı ilə yarım qalan işlər tamamlandı. Silahlı Qüvvələrimiz tarixi qələbə qazanaraq ölkəmizin ərazi bütövlüyünün bərpasına nail olmaqla yeni zəfər salnaməsi yaratdı. Azad edilmiş torpaqlarda qaldırılmış Azərbaycan bayraqları 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında nümayiş etdirildi. Azərbaycanın ərazi bütövlüyü və tarixi ədalət bərpa olundu. Bu Qələbə son 200 illik tariximizin ən böyük Zəferidir. Zəfər paradındakı çıxışında şanlı Qələbəmizi dəyərləndirən Prezident İlham Əliyev ordumuzun tarixi Zəfərini yüksək qiymətləndirərək dedi: “Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq. Bu gün hər bir azərbaycanlı 9 il əvvəl Lələtəpədə ucaldılan üçrəngli bayrağımızın işğaldan azad edilən Şuşada və digər ərazilərimizdə dalğalanmasından sonsuz qürur duymaqdadır. Allah bütün şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı versin”.

Azərbaycan Respublìkasının Medìanın İnkìşafı Agentlìyìnìn malìyyəsì əsasında nəşr olunur. Yazını hazırladı: Cavanşìr ABBASLI

# "ƏDV-ni geri al" problemi

### İstehlakçıların hüquqları hansı hallarda pozulur?




**Respublikada tətbiq edilən əlavə dəyər vergisinin (ƏDV) bir hissəsinin istehlakçılara ödənilməsi təcrübəsi müsbət statistik göstəriciləri ilə seçilib. Ticarət və xidmət obyektlərində, eləcə də daşınmaz əmlak alqı-satqısı zamanı vətəndaşlara qaytarılan məbləğlər, yeni model nəzarət-kassa aparatlarının sayı artır. Eyni zamanda keyfiyyətsiz kassa çekləri ilə bağlı şikayətlər də artıb.**

Dövlət Vergi Xidmətindən verilən məlumata görə, respublikada başladılan yeni model nəzarət-kassa aparatlarına keçid prosesi, o cümlədən ƏDV-nin qaytarılması üzrə geniş kampaniya yüksək nəticələri ilə seçilib. Cari ilin cəmi iki ayında müasir kassa terminallarından istifadə edən müəssisələrin dövriyyəsi daha 9,7 faiz artaraq 3 milyard 908,2 milyon manat təşkil edib. Bu dinamika yeni nəsil cihazların geniş tətbiq sahəsi ilə bağlıdır.

Üstəlik, son vaxtlar daşınmaz əmlak alarkən bu dolayı verginin bir hissəsini geri almaq mümkün olub. Əlbəttə ki, alıcı qanuna tabe olan tikinti şirkətlərinə müraciət edərsə. Beləliklə, yeni texnologiyalarla silahlanmış hökumət tikinti sektorunu nizama salır, alıcılar da öz paylarını alırlar.

Bununla bağlı statistikaya müraciət edək. Vergi Xidmətinin məlumatına görə, “ƏDV geri al” proqramı çərçivəsində cari ilin yanvar-fevral aylarında pərakəndə satış, tibbi xidmət və ictimai iaşə sahələrində 30,7 milyon manatdan çox əlavə dəyər vergisi Azərbaycan istehlakçılarına qaytarılıb. İki ay ərzində daşınmaz əmlaka görə ödənilən ƏDV-nin məbləği daha təvazökar görünür - cəmi 6,2 milyon manat.

Populyar tanıtımın bumuna baxmayaraq, yerli pərakəndə satışda ƏDV-nin geri qaytarılması ilə hər şey yaxşı getmir. Artıq bir neçə ildir ki, bir çox iri ticarət şəbəkələri vətəndaşlara problemli qəbzlər verir. Alıcılar çox vaxt onlardan ƏDV-ni geri ala bilmirlər: QR kodun çapının keyfiyyətinin aşağı olması səbəbindən qəbzlər təsdiqlənmir.

**İqtisadçı ekspert Natiq Cəfərli “Yeni Müsavat”a açıqlamasında deyib ki, ƏDV ilə bağlı çekin oxunmasında problem varsa, bu, vergidən yayınma cəhdidir:** “Vətəndaşlar belə hallarda mütləq müvafiq orqanlara məlumat verməlidir ki, vergidən yayınma məsələlərinin qarşısı alınsın. Doğrudur, arada texniki xətalar da olur. Bu, istisna hallardır. Yaxud da kassa aparatının çek çap edən avadanlığında problem olur. Bəzən isə QR kodlar oxunmaz halda çap edilir. Əslində bu da istehlakçıların hüquqlarının pozulmasıdır. Mağazaların borcudur ki, avadanlıqlarını yaxşı vəziyyətdə saxlasınlar.

Ümumilikdə buna bir vətəndaş nəzarəti mexanizmi yaradılmalıdır. Çünki istehlakçıların hüquqlarının müdafiəsi ilə məşğul olan qurumların işçilərinin sayı azdır. Bakı şəhərində isə 16 min ticarət obyekti var. deməli, burada bir vətəndaş nəzarəti funksiyası işə düşməlidir. Onların hamısına nəzarət etmək mümkün deyil. Deməli, burada vətəndaş nəzarəti funksiyası işə düşməlidir onlar aktiv olmalıdırlar. Çünki onları ƏDV-dən geri qayıdan vəsaitlər maraqlandırmalıdır. Vətəndaş mövqeyi olaraq hansı mağazalarda belə tipli problem görərlərsə, İqtisadiyyat Nazirliyinin qaynar xəttinə müraciət etməlidirlər. Bununla da iş adamlarının məsuliyyəti artar. Onlar da daha məsuliyyətli davranaraq, avadanlıqla bağlı problem aradan qaldırar, həm də əgər ikili kassa aparatları varsa və həmin o verilən çek rəsmi deyilsə, bunun qarşısı alınar.

Mən özüm də həftədə bir neçə dəfə belə halla üzləşirəm və mağazaya iradımı bildirirəm. Doğrudan da texniki səbəblərin olduğunu da görmüşəm. Avadanlıqda katric bitib, yaxud da çekin çapında texniki qüsurlar olub. Çalışmışam ki, məsələ yerindəcə həll olunsun".

**Ekspert deyir ki, minlərlə pərakəndə satış yerlərinə dövlətin nəzarət etmə funksiyalarını yerinə yetirməsi çox çətindir**: “Demək olar ki, mümkünsüzdür. Orada vətəndaşın nəzarət funksiyaları olmalıdır, dövlət də vətəndaşların verdiyi məlumatlara daha həssas yanaşmalıdır. Bəzi ölkələrdə bu tipli vətəndaşlara hətta mükafatlar da verilir ki, vətəndaş nəzarətini həyata keçirmək daha maraqlı olsun.

Təcrübədə yaşanıb ki, kassa aparatlarının ikili yazılım sistemləri olub. Yəni bəzən çeklər daxili yazılım sisteminə əlavə edilir və bu, rəsmi çek hesab olunmur. Belə hal cinayət tərkiblidir, vergidən yayınmanın üst formasıdır. Dövlətdən vergi gizlətmək kifayət qədər cəzalandırılacaq əməldir".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, istehlakçıların ərizələrində göstərilən qanun pozuntularının böyük bir qismi müxtəlif ticarət və iaşə obyektlərində kassa çeklərinin verilməməsi ilə bağlıdır:** “ İstehlakçıların ərizələri araşdırıldıqda əksər hallarda onların haqlı olduğu aşkara çıxır. Paytaxtın və bölgələrin bir çox ticarət, ictimai-iaşə, xidmət obyektlərində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər tərəfindən kassa aparatlarından istifadə edilməməsi, vurulmuş kassa çeklərinin alıcılara verilməməsi və nəticə etibarilə ümumi dövriyyənin gizlədilməsi halları narahatlıq doğurur.

Market və dükanların bir çoxunda alış zamanı xəzinədar tərəfindən kompüterdən çıxarılan qəbzdə (barkod) malların qiyməti və siyahısı, hesablanmış ƏDV əks etdirilir. Alıcılara təqdim edilən malların adı, miqdarı və yekun məbləği əks olunmuş sənəd kassa çeki deyil, qaimədir və bu sənəd kassa çekini əvəz edə bilməz. Kassa çekinin verilməməsi nəticəsində həm istehlakçıların hüquqları pozulur, həm də vergidən yayınma halları baş verir".

❑ Şahanə RƏHİMLİ, “Yeni Müsavat”

YENİ MÜSAVAT

Son səhifə

N 58 (8668) 9 aprel 2025

Aprel

## Bunları bilirsinizmi?

* Kələm: Xərçəngin düşmənidir.
* Necə yeməli: bişirmədən, salat kimi.
* Çuğundur: Gözlərinizə işıq verəcək.
* Necə yeməli: doğranmış və zeytun yağında qızardılmış.
* Darçın: Qan şəkəri və xolesterolun nəzarətinə yardımçıdır.
* Necə yeməli: Qəhvə kimi isti içkilərlə. Məsələn, isti südə qatmaq olar.
* Nar: Təzyiqi düşürür.
* Necə yeməli: Təzə və ya suyunu içməklə.
* Pencər: Bovden pencəri qırmızı göyərti kimi düşünün deyir. Ondakı təbii qırmızı piqmentlər xərçəngin düşmənidir.
* Necə yeməli: Təzə və salatlarla.
* Ərik qurusu: Antioksidlərlə doludur.
* Necə yeməli: Olduğu kimi və ya bişirib də yemək olar.
* Balqabaq çəyirdəyi: Erkən ölüm riskinə qarşı təsirli maqnezium deposdur.
* Necə yeməli: Çərəz kimi.
* Sardinya: Doktor Bovden sardinyanı "sağlıq konservi" adlandırır. Onda nələr yoxdur: kalsium, dəmir, maqnezium, fosfor və B vitaminin bütün çeşidlərinə sahibdir.
* Necə yeməli: Zeytun yağında və ya öz yağında bir müddət saxlanıldıqdan sonra təkbaşına və ya salatla.
* Zəncəfil: Ədviyyatın superstarıdır. Xərçəngə və iltihablara qarşı özəllikləri var.
* Necə yeməli: Yumurta və ya hər cür səbzə ilə.



## Alimlərdən gözlərlə bağlı yeni kəşf: gecə korluğunun müalicəsində inqilab yarada bilər

**Polşa Elmlər Akademiyasının alimləri insanın görməsində əsas rol oynayan RBP3 zülalının strukturunu təsvir ediblər. Bu barədə Oxu.Az "Gazeta.ru"ya istinadən xəbər verir.**

Alimlər aşkar ediblər ki, bu zülal A vitaminini gözün torlu qişasına çatdırmaqla yanaşı, həm də şəraitdən asılı olaraq onun formasını dəyişir və bu da onu göz xəstəliklərinin müalicəsi üçün potensial hədəfə çevirir. Araşdırmanın nəticələri "Open Biology" jurnalında dərc olunub.

RBP3 torlu qişanın hüceyrələrarası hissəsində yerləşən qlikoproteindir. O, görmə dövriyyəsində iştirak edir və A vitamininin törəmələri olan retinoidləri işığın elektrik siqnalına çevrildiyi fotoreseptorlara çatdırır. Zülalın elmə çoxdan məlum olmasına baxmayaraq, onun dəqiq strukturu və təsir mexanizmləri qeyri-müəyyən olaraq qalırdı. Alimlər RBP3-ü yüksək dəqiqliklə nəzərdən keçirmək üçün kiçikbucaqlı rentgen səpələnməsi də daxil olmaqla, qabaqcıl struktur analiz metodlarından istifadə ediblər. Məlum olub ki, zülal hansı retinoidlə bağlanmasından asılı olaraq, yığcamdan tutmuş uzanmış hala qədər müxtəlif formalar ala bilir. Bu plastiklik onun torlu qişa daxilində molekulların ötürülməsində dinamik rolunu göstərir. Tədqiqatçıların sözlərinə görə, bu kəşf fotoreseptorların funksiyasının pozulduğu, proqressivləşən və sağalmaz xəstəlik olan piqmentli retinitin (gecə korluğu) müalicəsində inqilab yarada bilər. RBP3 funksiyasındakı pozulmalar əvvəllər də bu patologiyanın inkişafı ilə əlaqələndirilirdi, lakin onun strukturu haqqında yeni məlumatlar torlu qişanın degenerasiyasını yavaşlada və ya dayandıra bilən üsulların yaradılması üçün imkanlar açır.

Alimlər həmçinin qeyd ediblər ki, RBP3 səviyyəsinin azalması korluğa gətirib çıxara biləcək daha bir yayılmış xəstəliyin - diabetik retinopatiyanın proqressivləşməsi ilə bağlıdır. Bu zülalın fəaliyyətinin stabilləşməsi, ilkin məlumatlara görə, torlu qişanın hüceyrələrinə qoruyucu təsir göstərir.

# Delfinlərlə bağlı alimləri uzun illərdir düşündürən sirrin cavabı tapıldı



**2013-cü ildə ABŞ-ın Florida ştatındakı Hindistan çayı laqunundа faciə baş verib: afalinaların (burunlu delfinlərin) populyasiyasının 8 faizi məhv oub. Beynəlxalq alimlər qrupu çoxillik araşdırmalardan sonra bu fəlakətin səbəbini tapıb.**

Oxu.Az-ın məlumatına görə, tədqiqat "Frontiers in Marine Science" (FMS) jurnalında dərc edilib. Bildirilir ki, delfinlərin kütləvi ölümünə səbəb fitoplanktonun çiçəklənməsi nəticəsində ekosistemin pozulması olub.

Fitoplankton - suyun üst qatında yaşayan və dənizlərdə, okeanlarda qida zəncirinin əsasını təşkil edən mikroskopik yosunlardır. Mülayim miqdarda onlar oksigen istehsal edərək və kiçik dəniz orqanizmləri üçün qida olaraq ekosistemin saxlanmasında mühüm rol oynayır. Lakin fitoplanktonun həddindən artıq böyüməsi dəniz bitkilərinin məhvi və bütün sistemin balansının pozulması kimi fəlakətli nəticələrə səbəb ola bilər.

"Biz delfinlərin ölümünü və zəifləməsini qida rasionunun dəyişməsindən sonra enerji istehlakının azalmasında görürük. Qida rasionundakı dəyişiklikləri isə fitoplanktonun intensiv və uzunmüddətli çiçəklənməsi nəticəsində məhv olan dəniz otları və yosunların yox olması ilə əlaqələndiririk", - deyə alimlər bildiriblər.

# Uzunömürlülüyün sirri: ürək sağlamlığı üçün həftədə optimal yumurta sayı açıqlandı



**Müntəzəm yumurta istehlakı ürək-damar xəstəliklərindən ölüm riskini əhəmiyyətli dərəcədə azalda bilər.**

Oxu.Az-ın verdiyi məlumata görə, bununla bağlı Monaş Universitetinin (Avstraliya) alimləri tərəfindən aparılan tədqiqatın nəticələri "Nutrients" nəşrində dərc edilib.

Tədqiqatda anamnezində ciddi ürək-damar xəstəlikləri olmayan 70 yaşdan yuxarı 8 756 könüllü iştirak edib. Alimlər sınaq iştirakçılarının qidalanma məlumatlarını təhlil edərək, xüsusi diqqəti yumurta istehlakına yönəldiblər. Nəticələr göstərib ki, həftədə 1-6 yumurta yeyən insanlarda ürək xəstəliklərindən ölüm riski 29 faiz azalıb.

Həmçinin yumurta istehlakının bu səviyyəsində olan könüllülərdə ümumi ölüm nisbəti, yumurtanı tamamilə qidalanmadan çıxaran və ya ayda bir-iki dəfə məhdudlaşdıranlarla müqayisədə 17 faiz aşağı olub. Alimlərin sözlərinə görə, yumurtalar haqlı olaraq faydalı məhsul hesab edilir. 100 qram yumurtada təxminən 13 qram zülal var ki, bu da heyvan və ya bitki mənşəli digər zülallardan daha effektiv mənimsənilir. Yumurtalarda əvəzolunmaz amin turşularının tam spektri, həmçinin vitaminlər və minerallar - fol turşusu, A, D, E, B12 vitaminləri, biotin, selen, kalsium və fosfor mövcuddur.

Lakin mütəxəssislər qeyd ediblər ki, yumurta istehlakı ürək-damar sisteminin sağlamlığını yaxşılaşdırmağın yeganə yolu deyil. Riskləri minimuma endirmək üçün qidalanmaya bitki mənşəli qidaları daxil etmək və fiziki aktivliyə diqqət yetirmək də lazımdır.

## İşdə "qıcıqlandırıcı" musiqi əməkdaşlara necə təsir edir?



**İş yerində "qıcıqlandırıcı" musiqi əməkdaşlarda koqnitiv tükənməyə gətirib çıxarır, bu da onları səhvlər etməyə vadar edir.**

Oxu.Az-ın "Gazeta.ru"ya istinadən xəbərinə görə, ABŞ-ın Ohayo Universitetinin alimləri bu qənaətə gəliblər. Araşdırmanın nəticələri "Journal of Applied Psychology" jurnalında dərc olunub.

Bildirilir ki, musiqini ən çox ticarət mərkəzlərinə, fitnes zallarına və ictimai iaşə müəssisələrinə baş çəkərkən eşitmək olar. Kompozisiyaların seçimi müəssisənin konsepsiyasından, hədəf auditoriyadan, günün vaxtından və digər amillərdən asılıdır, lakin demək olar ki, bütün hallarda bu, müştərilərə yönəldilib. Eyni zamanda melodiyaların sayı çox vaxt məhdud olur və məhz əməkdaşlar demək olar ki, hər gün onları dinləmək məcburiyyətində qalırlar.

Musiqinin əmək məhsuldarlığına və işçilərin psixoloji vəziyyətinə necə təsir etdiyini öyrənmək üçün alimlər 166 könüllünün iştirakı ilə araşdırma aparıblar. Təcrübədən əvvəl iştirakçılar musiqinin səsinin yüksəkliyi, sürəti, mürəkkəbliyi və emosional məzmunu ilə bağlı üstünlük verdikləri məqamları bildiriblər. Daha sonra iştirakçılardan iki növ musiqi seçimindən birini dinləyərkən yaradıcı tapşırığı yerinə yetirmələri xahiş olunub. İlk pleylistə orta mürəkkəblikdə əyləncəli, şən pop-kompozisiyalar daxil olub. Digər seçim daha yavaş, "kədərli", aşağı səslə çalınan melodiyalardan ibarət olub.

Nəticələr göstərib ki, iştirakçılar musiqinin qıcıqlandırıcı olduğunu düşündükləri zaman çox vaxt koqnitiv tükənmə - zehni yorğunluq hissi keçiriblər. Bu problem xüsusilə "stimulları seçmə qabiliyyəti olmayan" insanlar adlanan şəxslərdə daha kəskin şəkildə özünü göstərib. Alimlər izah ediblər ki, "stimul seçimi" birdəfəyə bir sensor məlumat mənbəyinə diqqəti cəmləmək qabiliyyətidir. Diqqətini cəmləməkdə çətinlik çəkənlər tez-tez uyğun olmayan musiqi səbəbindən əhvali-ruhiyyələrinin və iş qabiliyyətlərinin aşağı düşdüyünü ifadə ediblər.

Həmçinin məlum olub ki, "əsəbiləşdirici" kompozisiyaları dinləyərkən iştirakçılar daha ləng düşünüblər, tez-tez şirkətə zərər verən hərəkətlər ediblər və az hallarda uğurlu həll yollarını tapıblar.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABÌROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yenì Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lìsenziya N: B 114
SAYI: 1.500